

Milli azadlıqdan şirin nemət yoxdur!

# Şuşadan bütün dünyaya...

## İlham Əliyev: Heç kim bizə diktə edə bilməz! Bizim daxili işlərimizə müdaxilə edə bilməz!



Bax səh. 4


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

14 may 2024-cü il, çərşənbə axşamı

№ 084 (6670)

Qiyməti 60 qəpik


# “Qarabağın tacı”nda qovuşan İslam mədəniyyəti



Bax səh. 3

# Yeni Qarabağ formalaşır

Bax səh. 3





Bax səh. 5

# Kiçik ada dövlətlərinə yardım bizim üçün mənəvi borcdur

Bax səh. 2

# Böyük Qayıdışın yeni ünvanı - Xocalı!




Bax səh. 4

# İnsanın HAQQI...

## Səfir Libbi Qubadın yox, şəhid valideynlərinin yanında olmalı idi!

# Cəmiyyətin mühüm dayağı...

Fikir və ifadə azadlığı demokratik cəmiyyətin mühüm dayaqlarından biridir. Eyni zamanda söz azadlığının tərəqqisi hər bir fərdin inkişafı üçün əsas şərtlərdən birini təşkil edir. Bu baxımdan da söz və fikir azadlığı insanların ayrılmaz hüququ sayılır. Azad media sivil, demokratik cəmiyyətdə vətəndaşların ictimai forumu rolunu oynayır. Belə ki, vətəndaş öz fikir və düşüncəsini sərbəst ifadə etməklə cəmiyyətin tərəqqisinə töhfə verir. Buna görə də hər sivil dövlətdə azad, müstəqil medianın təşəkkül tapması olduqca mühüm faktdır.

Azərbaycan hər zaman sivil, demokratik dəyərlərə sadiqlik nümayiş etdirib. Ölkəmizdə söz və fikir azadlığının, azad medianın bərqərar olmasına böyük önəm verilir. Bu bir həqiqətdir ki, azad mediaya sahib olmayan cəmiyyətlərin davamlı iqtisadi, siyasi inkişafı qeyri-mümkündür. Bu həqiqəti müasir dünyada hər kəs ...

Bax səh. 5

# Saatlıq, yoxsa aylıq əməkhaqqı...

Məlum olduğu kimi Dünya Bankı (DB) neçə illərdir ki, dünya ölkələrində biznes mühiti və iqtisadi vəziyyətlə bağlı dərc etdiyi ənənəvi “Doung Business” hesabatını yeni illik qiymətləndirmə xülasəsi olan “Business Ready” ilə əvəz edib. Yeni hesabatdan irəli gələn tövsiyələrə uyğun olaraq Dünya Bankı Qrupu ilə Azərbaycan hökuməti 2 ildir ki, əməkdaşlıq edir və “Business Ready” hesabatının “İşçi qüvvəsi” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair Yol Xəritəsi hazırlanıb. Yol Xəritəsində məşğulluq, əmək bazarı, əməyin qiymətləndirilməsi üzrə bir sıra tədbirlərin görülməsinə dair təkliflər öz əksini tapıb ki, onlardan biri də minimum əməkhaqqının hesablanması qaydasının dəyişdirilməsidir. Belə ki, minimum əməkhaqqının strukturuna yenidən baxılması və əməyin qiymətləndirilməsi meyarının günlük deyil...

Bax səh. 6

# Dusenin fransızsayağı erməni sevdası...

Fransanın hazırkı mövqeyi Cənubi Qafqazda sülhə və təhlükəsizliyə böyük təhdiddir. Ermənilərin maraqları naminə bu ölkə beynəlxalq hüquqa hörmətsizlik edir, bəşəri dəyərləri ayaqlar altına atır. Bu, o deməkdir ki, Fransa hökuməti və parlamenti, bu ölkənin ayrı-ayrı siyasi dairələri uzun illərdir açıq irqçi, azərbaycanofob, türkofob və islamofob fəaliyyət nümayiş etdirirlər. Bu yanaşma artıq Fransanın dövlət siyasəti səviyyəsinə çatıb. Eyni zamanda, Fransa parlamentinin qərarları beynəlxalq hüququn normalarına və prinsiplərinə zidd olmaqla, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı qərəzli və ədalətsiz addımdır. Fransa parlamenti hələ 2020-ci ilin noyabrında - Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi zəfərdən qısa müddət sonra o vaxt Qarabağdakı separatçı...

Bax səh. 5

# Hökumət-kilsə qarşıdurması



Bax səh. 7

# Sənədsiz evlər: qeydiyyata alınsa da...



Bax səh. 6

# Azərbaycan kiçik ada dövlətlərinin problemlərinin həllinə öz töhfəsini verməyə hazırdır

## Prezident İlham Əliyev Millətlər Birliyi təşkilatının baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Millətlər Birliyi təşkilatının (Commonwealth) baş katibi Patrisia Skotlendi qəbul edib.

AZƏRTAC xəbər verir ki, ölkəmizə səfərindən məmnunluğunu bildirən Patrisia Skotlend səfərinin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının ildönümünə təsadüf etməsini xüsusi vurğulayaraq, Ulu Öndərin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarlarını ziyarət etdiyini bildirdi, dahi şəxsiyyətin və onun ömür-gün yoldaşının Azərbaycanın inkişafına verdiyi töhfələri xatırlatdı.

Patrisia Skotlend ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyini məmnunluqla qeyd etdi, bunun özünü xüsusilə COVID19 pandemiyası zamanı göstərdiyini vurğuladı. O, Uqandada Hərəkatın Zirvə toplantısında iştirak etdiyini deyərək orada bütün dövlətlər tərəfindən Azərbaycanın sədrliyinin çox yüksək qiymətləndirildiyini və bunun praktiki nəticələrinin olduğunu qeyd etdi. Qonaq Azərbaycanın Hərəkata uğurlu sədrliyi ilə bağlı bir daha təbriklərini çatdırdı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Patrisia Skotlendin ölkəmizdən yaxşı təəssüratlarla ayrılacağına ümidvar olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində səmərəli fəaliyyət göstərdiyini, Hərəkatın təsisatlanması istiqamətində mühüm addımlar atdığını vurğuladı. Pandemiya dövründə COVID19 ilə bağlı BMT Baş Assambleyasının Xüsusi Sessiyasının çağırılması təşəbbüsünün ölkəmizə məxsus olduğunu xatırladan Prezident İlham Əliyev Azərbaycanın 80-dən çox ölkəyə, xüsusilə Qoşulmama Hərəkatına üzv dövlətlərə yardım göstərdiyini, vaksin millətçiliyinə qarşı BMT təsisatlarında müvafiq qətnamələrin qəbul olunmasını təmin etdiyini, bununla mübarizə istiqamətində beynəlxalq aləmdə səyləri birləşdirmək üçün fəaliyyətini vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın Qoşulmama Hərəkatına üçillik sədrliyi üzv dövlətlərin dəstəyi ilə daha bir il müddətinə uzadılmışdır.

Azərbaycan Prezidenti ölkəmizin Hərəkata sədrliyi dövründə qazandığı beynəlxalq təcrübədən iqlim dəyişikliyi ilə bağlı istifadə edəcəyini, bu məsələdə də səylərini davam etdirəcəyini dedi, iqlim dəyişikliyindən əziyyət çəkən ölkələrə ədalətli yanaşmanı nümayiş etdirəcəyini bildirdi.

Dövlətimizin başçısı vurğuladı ki, dünya ictimaiyyətinin yekdil dəstəyi ilə ölkəmizin COP29-a sədrlik etməsi və bu tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul olunub. Azərbaycanın Qoşulmama Hərəkatının "sədrlik üçlüyündə" yer aldığını deyən Prezident İlham Əliyev COP çərçivəsində də "üçlük" mexanizminin yaradıldığını qeyd edərək, bu istiqamətdə Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliyanın birlikdə fəaliyyət göstərdiklərini, müxtəlif regionlarda yerləşmələrinə baxmayaraq, COP gündəliyinin birgə irəli aparılması üçün çalışdıqlarını vurğuladı.

Azərbaycan Prezidenti ölkəmizin Millətlər Birliyi təşkilatı ilə əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu bildirdi.

Qonaq Millətlər Birliyi təşkilatının üzvlərinin 33-nün məhz kiçik ada dövlətləri olduğunu deyərək, həmin ölkələrin iqlim dəyişikliklərinin mənfi fəsadlarına ən çox məruz qalan, hətta iqlim dəyişikliklərinə görə mövcudluqları sual altında olan dövlətlər olduğunu vurğuladı.

Azərbaycanın kiçik ada dövlətlərinin və az inkişaf etmiş ölkələrin problemlərinə COP29 sədrliyi çərçivəsində xüsusi diqqət yetirəcəyini deyən Prezident İlham Əliyev qeyd etdi ki, ölkəmiz onların problemlərinin həllinə öz töhfəsini verməyə hazırdır. Bu xüsusda Azərbaycan ilə Millətlər Birliyi təşkilatı arasında birgə əməkdaşlıq layihələri və COP29 çərçivəsində kiçik ada dövlətlərinə həsr edilmiş xüsusi iclasın keçirilməsi məsələləri müzakirə olundu.

# Kiçik ada dövlətlərinə yardım bizim üçün mənəvi borcdur

## Prezident İlham Əliyev Tuvalunun general-qubernatorunu, Tonqanın Baş nazirini və Baham Adaları Birliyinin xarici işlər nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Tuvalunun general-qubernatoru Falani Tofinqanı, Tonqa Krallığının Baş naziri Savaleni Siaosi Ofa Ki Vahafolaunu və Baham Adaları Birliyinin xarici işlər naziri Mitçel Frederik Audleyi qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev dedi: Xoş gəlmisiniz. Sizi görmək xoşdur. Sizə Azərbaycanda yaxşı vaxt keçirməyi arzu edirəm. Burada qonaqlarımızın iqlimlə bağlı mühüm məsələləri müzakirə etmələrini görmək çox xoşdur. Sizi konfransa dəvət etmək istəyirəm. Əlbəttə, ümidvaram ki, siz konfransın açılış mərasimində olacaqsınız. Beləliklə, bu, ikitərəfli gündəliyimizi, bizim birlikdə necə çalışa biləcəyimizi və bu ciddi iqlim çağırışı ilə bağlı sizi necə dəstəkləyə biləcəyimizi müzakirə etmək üçün yaxşı fürsətdir. Xoş gəlmisiniz. Bilirəm ki, Azərbaycanda geniş proqramınız və çoxlu görüşləriniz var. Əminəm ki, yaxşı təəssüratlarla geri dönəcəksiniz.**

### İtki və Zərər Fondu fəaliyyətə başlamalıdır

**Tuvalunun general-qubernatoru Falani Tofinqa:** Əlbəttə. Sabahınız xeyir, cənab Prezident. Mən Tuvalunu təmsil edirəm. Tuvalı hökumətinə göndərdiyiniz dəvəti böyük minnətdarlıq hissi ilə qəbul edirəm. Buna görə də gözəl paytaxtınız Bakı şəhərinə səfərim hökumətlərimiz - Azərbaycan hökuməti və mənim hökumətim arasında olan güclü diplomatik əlaqələrin aydın təzahürüdür.

Cənab Prezident, icazə verin, aşağıdakı təklifləri Sizin ali diqqətinizə çatdırım. Bunlar əsasən üç geniş sahəni əhatə edir. COP29 üçün bir nömrəli əsas prioritetlər. İtki və Zərər Fondunun fəaliyyətə başlaması. İqlim maliyyələşməsi üzrə yeni kollektiv kəmiyyət hədəfinin müəyyən edilməsinin yekunlaşdırılması. İqlim dəyişikliyinin qarşısının alınması tədbirlərinin görülməsi, təmiz enerjiyə ədalətli və bərabər keçid prosesinin qəbul edilməsi.

Zati-aliləri, ölkələrimiz arasında diplomatik əlaqələri gücləndirmək üçün Tuvaluda adaptasiya layihəsinin maliyyələşdirilməsi məsələsi bizə layihənin nəticələrini COP29-da nümayiş etdirmək imkanını verəcək. Ölkələrimiz - gözəl Azərbaycan və kiçik ada ölkəsi olan Tuvalu arasında viza rejiminin aradan qaldırılmasını Sizdən xahiş edirik. Azərbaycan hökumətindən tələbələrə təqaüdlərin ayrılmasını xahiş edirik ki, bizim istedadlı gənclərimiz Sizin yüksək səviyyəli ali məktəblərinizə və digər texniki kolleclərə qəbul ola bilsinlər. Sonuncu məsələ, cənab Prezident,



mən COP29-dan öncə Tuvaluya səfər etmək üçün bizim hökumətimiz adından dəvəti Zati-aliləri cənab Prezidentə çatdırıram. Vaxtınızı almayaraq, cənab Prezident, bir daha Sizə çox sağ olun demək istəyirəm.

### COP29 təkcə qlobal miqyasda yox, kiçik ada ölkələri üçün mühüm məsələlərin həllində dönüş nöqtəsi olacaq

**Tonqa Krallığının Baş naziri Savaleni Siaosi Ofa Ki Vahafolau:** Cənab Prezident, Tuvalunun general-qubernatorunun Sizə ünvanladığı minnətdarlığa qoşulmaq istəyirəm. Həmçinin təkcə mənə yox, eyni zamanda, nümayəndə heyətimizə Azərbaycan hökuməti tərəfindən göstərilən qonaqpərvərliyə görə səmimi təşəkkürümü bildirirəm. Çox sağ olun, cənab Prezident.

COP29 təkcə qlobal miqyasda yox, konkret olaraq bizim kimi kiçik ada ölkələri üçün mühüm məsələlərin həllində dönüş nöqtəsi olmalıdır. Cənab Prezident, yəqin bilirsiniz, iqlim dəyişikliyi sərhədlərə baxmır, kiçik və ya böyük ölkə olmasına baxmır. O, sadəcə, hamımıza təsir edir. Bu vəzifəni üzərinə götürdüyü üçün Azərbaycanı və xüsusilə Sizi təqdir edirəm. Bu, asan bir vəzifə olmayacaqdır. Biz burada olduğumuz müddətdə Sizin liderliyinizə və COP29-a sədrliyinizə dəstək olacağıq ki, bu COP-un daha da faydalı olması üçün yolları müəyyən edə bilək.

Mən çoxlu COP-larda iştirak etmişəm və bəzən biz özümüzə sual edirik, xüsusilə okeanın o tayında olduğumuzu nəzərə alaraq buraya gəlməyə dəyərmi? Buna görə Azərbaycanda keçiriləcək COP-da nələr etmək olar müzakirəsinə qoşulmaq üçün kiçik ada ölkələrinin cəlb edilməsi bizdə nəinki xoş təəccüb hissi doğurdu, biz bu addımı yüksək qiymətləndiririk. Hesab edirəm ki, təsir altında olan ölkələrin nöqteyi-nəzərindən biz nə kimi məsələləri nəzərdən keçirməliyik, burada - Azərbaycanda keçirilən COP-da prioritetlərin nədən ibarət olacağını müzakirə etmək irəliyə doğru atılan mühüm bir addımdır. Biz COP29 üçün sərgilədiyiniz cəsarət və sadiqliyi bir daha təqdir edirik və birlikdə işləyərək hətta biz - kiçik ada ölkələri COP29-u uğura çevirə biləcəyimizə və bu beynəlxalq foruma olan inamı bərpa edə biləcəyimizə inanırıq. Çünki biz iqlim dəyişikliyi haqda uzun müddətdir ki, danışırıq. Məsələn, itki və zərərlər məsələsi Tuvalu tərəfindən on ildən çoxdur ki, qaldırılır və yalnız keçən il biz müəyyən razılığa gələ bildik. Biz müəyyən bir prosesin olduğunu bilirik, lakin bu, çox uzun zaman aparır, xüsusilə bizim hamımızın iqlim dəyişikliyinin təsirini hiss etdiyimiz bir dövrdə. İnsanlar bu problem haqda danışır, lakin bəzilərimiz iqlim dəyişikliyinin təsirini hiss edir. Məsələn, dəniz səviyyəsinin qalxması. Biz dəniz səviyyəsinin qalxmasına görə sahilyanı ərazilərin geriyə çəkilməsini nəzərdən keçirirdik. Bundan əlavə, bizdə təbii fəlakətlər baş verir. Bizdə çox güclü siklonlar olur və məsələn, Tahada vulkan püskürməsi və sunami baş vermişdir. Bu hadisələr sahilyanı sərhədlərin geriyə çəkilməsini zəruri etdi və sahil mühafizəsi nöqteyi-nəzərindən bütün məsələni mürəkkəbləşdirdi.

Bu səbəbdən biz hökumətinizin COP29-dakı sədrliyi üçün sahillərin mühafizəsinə dair müzakirə mövzuları təklif etmək istərdik. Baham adalarının əvəzindən danışmaq istəməzdim, ancaq biz və hər halda Tuvalu da 99 faiz okeanla əhatə olunmuşuq, ərazimiz olduqca kiçikdir. Biz bəzən özümüzü böyük okean dövləti adlandırırıq. Ancaq reallıq ondan ibarətdir ki, bizim resursumuz və torpaq sahəmiz yoxdur, olan kiçik sahəni qorumaq üçün əlimizdən gələni etməliyik. Hər il Sakit Okean hövzəsi liderlərinin toplantısı təşkil olunur, 18 dövlətin rəhbərləri Liderlərin Forumu adlanan tədbirə toplaşırlar. Buraya Avstraliya və Yeni Zelandiya da daxildir. Bu il liderlər Tonqaya səfər edəcəklər.

Zati-aliləri, zənnimcə, bu, Sizin və ya COP-un prezidentliyinin nümayəndəsinin iştirakı üçün münasib məkan olacaqdır ki, orada COP29-a baxış təqdim edilsin və Sakit okean hövzəsinin kiçik ada dövlətlərinin dəstəyi əldə olunsun. Kiçik ada dövlətləri üçün əhəmiyyətli məsələlərin Sizinlə və nümayəndələrinizlə müzakirə edilməsi imkanına görə şadıq. Bəli, bizim Kiçik Ada Dövlətləri Alyansımız var və biz BMT çərçivəsində gündəliyin təşviqində yardımçı ola bilərik. Biz Sizi və ya nümayəndənizi avqust ayının sonuncu həftəsi Tonqada görməkdən şad olardıq. Orada Sakit okean hövzəsi liderləri ilə birbaşa müzakirə aparmaq imkanı olacaqdır. Biz Azərbaycanda keçiriləcək COP29-a qədər bir neçə ay ərzində Sizinlə əməkdaşlıq etməkdən məmnun olardıq. Cənab Prezident, dəvətə və qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

### Baham adaları sahillərinə yaxınlıqda Azərbaycanın adını daşıyacaq dalğaqıran inşa edilə bilər



Baham Adaları Birliyinin xarici işlər naziri Mitçel Frederik Audley: Apellyasiya Məhkəməsi hakimləri arasında belə bir ifadə var - onlar özləri qərarı qəbul etmək istəməyəndə deyirlər: mən bütün deyilənlərlə razıyam. Mən də sözlərimə bununla başlamaq istərdim. Hər ölkəyə gəldikdə vəziyyət eynidir. İlk növbədə, mən hazırda digər bir dövlət səfəri ilə bağlı burada ola bilməyən hörmətli Baş nazirimiz adından üzrxahlıq diləmək istərdim. Ancaq mənə tapşırılıb ki, bu işi öz üzərinizə götürdüyünüz üçün Sizə təşəkkürümüzü ifadə edim. Baş nazirimiz payızda COP29-da iştirak etmək üçün buraya səfər edəcəkdir.

Mən İtki və Zərər Fonduna maliyyə vəsaitlərinin cəlb olunması məsələsini xüsusilə qeyd etmək istərdim. Məni hava limanında qarşılayan həmkarlara söylədim ki, müvafiq maliyyə vəsaiti cəlb edildikdə Baham adaları sahillərinə yaxınlıqda ölkənizin adını daşıyacaq dalğaqıranın inşası belə mümkündür. Xəzər dənizində gördüyüm dalğaqıran məndə dərin təəssürat yaratdı. Mən uşaqlıqda Xəzər dənizi haqqında eşitmişdim. İndi isə onu şəxsən görmək mənə çox xoş oldu.

Ancaq burada Baş nazirin də qeyd etdiyi kimi, ciddi məsələ tropik siklonlarıdır. Beş il öncə baş vermiş yalnız bir qasırğa nəticəsində Baham adaları ümumi daxili məhsulun 30 faizini itirib və biz hələ də onun fəsadlarını aradan qaldırırıq. İtki və Zərər Fondunun maliyyə imkanları sayəsində nəhəng dalğaqıranların inşası nəzərdə tutulub. Baham adaları, ümumilikdə, Karib hövzəsi ölkələri üçün burada ən böyük çətinlik ondan ibarətdir ki, biz yüksək gəlirli ölkələr hesab edilirik. Çoxları isə bunu nəzərə almır ki, təbii fəlakətlər baş verir, ölkəyə ciddi ziyan dəyir və daha sonra güzəştli şərtlərlə maliyyə vəsaitlərinin cəlb edilməsi məsələsində problemlər yaranır. Bu səbəbdən biz, həmçinin beynəlxalq maliyyə təsisatları çərçivəsində bununla bağlı dəyişikliklərin edilməsi üzərində çalışırıq.

Ölkənizlə ikitərəfli əsasda diplomatik münasibətlər 2017-ci ilin mayında qurulub. Hazırda təklifimiz ondan ibarətdir ki, biz bunu daha irəliyə aparaq, indiki mərhələdə qeyri-rezident səfirlər təyin edək və Xarici İşlər nazirlikləri vasitəsilə viza tələbinin aradan qaldırılmasına nail olaq. Bizim bir sıra ölkələrlə belə sazişlərimiz var. Düşünürük ki, bu, münasibətlərimizin irəliyə doğru aparılması istiqamətində məqsədəuyğun addım olar. Bir sözlə, bir daha sadəcə qeyd etmək istəyirəm ki, bu məsələ ciddidir. Baş nazir onu ekzistensial məsələ adlandırır. Baham torpaqlarının 80 faizi dəniz səviyyəsindən cəmi bir metr hündürlükdədir. Ən yüksək nöqtə dəniz səviyyəsindən 206 fut təşkil edir. Yəni, çox da yüksək deyil.

Ötən il Nyu-Yorkda BMT Baş Assambleyasında çıxış etdikdən sonra orada "Səyahətçilər klubu" mənə bir təqdimat göstərdi. Təqdimatda əgər biz bu problemin qarşısını almasaq, 2070-ci ildə paytaxt şəhər Nassau və adaların hansı vəziyyətdə olacağı nümayiş etdirilirdi. Adanın 30 faizi suyun altında qalacaq. 2100-cü ildə isə 70 faiz su altında qalacaq. Bu səbəbdən Baş nazir həmin məsələni bizim mövcudluğumuzla bağlayır. Ümid edirik ki, bu səfər məsələnin dərk edilməsini konkretləşdirəcək, bizə dəstək veriləcək və beləliklə, biz məsələnin həllində irəliyə doğru birgə gedə biləcəyik. Lakin qabaqlayıcı tədbirlərin görülməsi, itki və zərərlərin qarşısının alınmasının maliyyələşdirilməsi bir daha qeyd edilməlidir.

Səfərə dəvət etdiyinizə görə bir daha minnətdaram. Üzrlü hesab edin ki, Baş nazir özü gələ bilmədi. Sizinlə gələn aylar ərzində işin davam etdirilməsini səmimiyyətlə arzulayıram.

### Maliyyə töhfəsini verməyə hazırıq

**Prezident İlham Əliyev:** Bir daha çox sağ olun. Ölkəmizə səfər etdiyinizə görə minnətdarıq. İkitərəfli gündəliyimiz və COP29 məsələləri barədə söhbət etmək üçün yaxşı fürsətdir. Bizə bu missiyanı təxminən 200-ə yaxın ölkənin yekdil qərarı ilə həvalə ediblər. Bu, Azərbaycana hörmət əlamətidir və həmçinin nəticələrə nail olacağımızın təzahürüdür. Bildiyiniz kimi, biz Qoşulmama Hərəkatına dörd il ərzində sədrlik etdik. Sədrliyə də yekdil qərarla seçildik. Sədrliyimizi Uqandaya həvalə etdiyimiz zaman biz artıq nəzərəçarpan nəticələrə aid yaxşı təcrübənin əsasını qoyduq. Təsisatın inkişafı, o cümlədən COVID-19 kimi çətin vaxtlarda ehtiyacı olan dövlətlərə dəstək, bu məsələnin mümkün qədər yüksək səviyyəyə qaldırılması onların sırasındadır. Yəni, bizim təşəbbüsümüzlə Baş Assambleyanın xüsusi sessiyası təşkil edilmişdi.

Hazırda biz COP29-a sədrlik edirik və buna praktiki nöqteyi-nəzərdən yanaşırıq. Bilirik ki, bir çox müzakirələr, söhbətlər aparılıb, lakin nəticə çox olmayıb. Bizim mövqeyimiz isə hər zaman çox praktiki və praqmatik olub. Biz nəticələrə nail olmaq istəyirik. Konfransda müzakirə olunacaq ən mühüm məsələ maliyyədir. Vəsaitlərin ayrılması üzərində fəal çalışırıq ki, həmin məsələlər həllini tapsın. Eyni zamanda, anlayırıq ki, iqlim dəyişmələri bəzi ölkələr üçün problemdir, lakin digərləri üçün mövcudluqla bağlı olan məsələdir. Biz bunu aydın şəkildə anlayırıq. Düşünürük ki, kiçik ada dövlətlərinə yardım bizim üçün mənəvi borcdur. Sizi əmin edə bilərik ki, kiçik ada dövlətləri məsələsi, onlara dəstəyin verilməsi, onların müdafiəsi müzakirələrin təməlində dayanacaq. COP29-un sədri kimi, biz bunu diqqət mərkəzində saxlayacağıq. Həmçinin digər kiçik ada dövlətləri ilə məsləhətləşərək, COP29 zamanı yüksək səviyyəli nümayəndələrin görüşünün təşkil olunmasını təklif edirik. Eyni zamanda, kiçik ada dövlətlərinə dəstəyin verilməsi məqsədilə praktiki töhfəni və maliyyələşmə addımlarını bəzi tərəfdaşlarla artıq müzakirə edirik.

Artıq dediyim kimi, hər kəs, o cümlədən Azərbaycan iqlim dəyişmələrindən əziyyət çəkir. Sizdə su artıqdır. Bizdə isə su azdır. Bizdə quraqlıq, sizdə isə dənizin ərazinizə daxil olması var. Bununla belə, hər bir ölkə problemlə üzləşir, lakin sizin üçün bu, mövcudluqla bağlıdır. Qlobal istiləşmədə böyük payı olan ölkələr isə bundan əziyyət çəkən ölkələrin maraqlarına və gündəlik tələblərinə göz yummalı deyillər. Qlobal istiləşməyə siz səbəb olmamısınız, biz səbəb olmamışıq. Bizim payımız, ola bilsin, mində birdir. Biz axı əziyyət çəkirik. Siz daha çox əziyyət çəkirsiniz. Mən bir daha sizi əmin edə bilərəm ki, biz təkcə sözdə deyil, o cümlədən işdə göstərəcəyik. COP29-un nəticəsi kimi Sizə maksimum gözəçarpan dəstəyin göstərilməsi üçün tərəfdaşlarımızla işləyəcəyik. Bizə gəldikdə, biz buna maliyyə töhfəsini verməyə hazırıq.

x x x

Sonda xatirə şəkli çəkdirildi.

# "Qarabağın tacı"nda qovuşan İslam mədəniyyəti

Hər bir azərbaycanlı üçün çox əziz şəhər olan Şuşa 2024-cü ildə zəngin İslam mədəniyyətinin qovuşduğu bir məkan kimi diqqət mərkəzində dayanacaq. Bu günlərdə şəhərin Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi keçirilib. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin iştirakı tədbiri xüsusilə rövnəqləndirib. Builki festivalın iştirakçıları arasında həm də ICESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər yer alıblar.

***Mübariz ABDULLAYEV***

## Azərbaycanın gözü, xalqımız üçün iftixar mənbəyi olan Şuşa

Əsası 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulan Şuşa Qarabağın tacıdır. Lakin bu şəhərin əvəzsiz dəyəri yalnız önun coğrafi yerləşməsində, təbii gözəlliyində, uca dağlar qoynunda buludlarla baş-başa verərək möcüzəvi bir səma-məkan vəhdəti yaratmasında deyil. Onun xalqımız üçün böyük mənəvi dəyəri var.

Şuşa tarixən Azərbaycan şəhəri kimi inkişaf edib və burada onilliklər boyunca zəngin mədəniyyətimizin çox gözəl nümunələri yaranıb. Ölkəmizi bütün dünyada tanıdan muğam ustadlarının, xanəndələrin sıraları kifayət qədər geniş olan pleyadası məhz Şuşanın yetirməsidir.

Əlbəttə ki, ana təbiətin Şuşaya lütvü öz yerində. Eyni zamanda, tarixi şəxsiyyətlərin Şuşaya diqqət və qayğısı şəhərin sonrakı inkişafında, burada zəngin mədəniyyət formalaşmasında, tarixi abidələrin qorunmasında müstəsna rol oynayıb. Şuşaya açıq səma altında tarixi abidə, eyni zamanda Azərbaycan xalqının qəhrəmanlıq qalası kimi baxan Heydər Əliyev zamanında bu şəhərdə müstəsna əhəmiyyət daşıyan işlər gerçəkləşdirib. Ötən əsrin yetmişinci illərində Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə xüsusi qərarlar qəbul edilib. Bu qərarlara uyğun olaraq şəhərin tarixi abidələri, o cümlədən İslam mədəniyyətinə aid məscidlər bərpa edilib, yeniləri tikilib, şəhər böyüyüb, onun statusu yüksəlib və ümumittifaq səviyyəli kurort şəhərinə çevrilib. Heydər Əliyev müstəqillik dövründə Şuşanın ermənilərin tapdağı altında qalması ilə heç cür razılaşa bilmirdi. O, qürur qalamızın, eləcə də işğal altında olan digər torpaqlarımızın azad edilməsinə çalışır və həmin xoşbəxt günün gələcəyinə inanırdı. "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" deyən Heydər Əliyev vurğulayırdı ki, Şuşa təkcə şuşalılar üçün deyil, hər bir azərbaycanlı üçün əziz bir anlayışdır, deyə bilərəm ki, Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir.

Rəşadətli Ordumuz Müzəffər Lider İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində digər ərazilərimiz kimi, Şuşanı da işğaldan



azad etməklə Heydər Əliyevin inamını doğrultdu. Biz Şuşaya qalib xalq, bu şəhərin əsl sahibləri kimi qayıtdıq. Diqqət çəkən ən mühüm məqamlardan biri ondan ibarətdir ki, Şuşa uzun illər ərzində işğal altında qalsa da, onun tarixiliyinə, milliliyinə qəsdlər edilməsinə çoxsaylı cəhdlər göstərilsə də, buna nail olunmayıb. "Bu işğala baxmayaraq, Şuşa öz ruhunu - Azərbaycan ruhunu qoruyub saxlaya bildi. Biz Şuşa azad olunandan sonra Şuşaya qayıtdıqda bir daha hər birimiz bunu görmüşük və dəfələrlə görürük. Şuşaya gələn hər bir insan əyani şəkildə görür ki, burada Azərbaycan ruhu var", - deyə Prezident İlham Əliyev bəhs olunan tədbirdəki çıxışında bildirib.

Postmüharibə dövründə Şuşanın dirçəldilməsi istiqamətində çoxsaylı layihələr reallaşdırılır. Şəhərin tarixi simasının bərpası istiqamətində fəal işlər gedir. O cümlədən Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə buradakı tarixi mədəni-dini abidələrə ikinci həyat verilir. İndiyədək dörd məscid yenidən qurulub, digər abidələrdə isə təmir-bərpa işləri davam etdirilir.

## İslam dünyasının Azərbaycana hörmət və dəstəyi

Çoxsaylı tarixi abidələrin olduğu Şuşaya yalnız Azərbaycanda deyil,





bütün İslam dünyasında böyük rəğbət bəslənilir. Xatırladaq ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2022-ci il Azərbaycanda "Şuşa ili" elan olunub. 2023-cü ildə Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" seçilib. 2024-cü ildən isə Şuşa "İslam dünyasının mədəniyyət paytaxtı" missiyasını daşıyacaq. 2023-cü il sentyabrın 25-i və 26-da Qətər dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Şuşa şəhərinin 2024-cü il üçün ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" proqramı üzrə namizədliyi irəli sürülüb. Konfrans iştirakçılarının yekdil qərarı ilə Qarabağımızın incisi Şuşa şəhəri bu şərəfli ada layiq görülüb.

Birinci dəfə deyil ki, Azərbaycan şəhəri İslam dünyasının mədəniyyət paytaxtı adını qazanır. 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhəri də İslam dünyasının mədəniyyət paytaxtı elan edilib. Cari ildə isə əziz Şuşamız bu şərəfli adı daşıyacaq. Müxtəlif illərdə Azərbaycan şəhərlərinin İslam dünyasının mədəniyyət paytaxtları seçilməsi isə heç də təsadüfi deyil. Prezident İlham Əliyevin bildirdiyi kimi, biz bunu İslam dünyasının Azərbaycana növbəti dəstəyinin, hörmətinin əlaməti kimi qəbul edirik.

Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində İslam dini xüsusi yer tutur. İslam dini Azərbaycan xalqının həyatına VII əsrdən başlayaraq daxil olub və həmin dövrdən etibarən milli-mənəvi dəyərlərimizin formalaşmasında və zənginləşməsində mühüm rol oynayıb. Ölkə ərazisində mövcud olan Əshabi-Kəhf ziyarətgahı, Qafqazın ən qədim məscidi - 743-cü ildə əsası qoyulmuş Şamaxı Cümə məscidi, Bibiheybət məscid-ziyarətgah kompleksi, Gəncə "İmamzadə" kompleksi və digər çoxsaylı abidələr Azərbaycanın İslam dini-mədəni dəyərlər sisteminə əhəmiyyətli töhfəsi kimi qiymətləndirilə bilər.

Hazırda müstəqil Azərbaycan dünyada İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində fəal iş aparır. 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması Azərbaycanın müsəlman aləmində həmrəyliyin möhkəmlənməsinə göstərdiyi siyasi iradənin ifadəsidir. Öz növbəsində İslam dünyası da Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi ardıcıl siyasəti yüksək dəyərləndirir.

## Zəngin Şuşa ili

Şübhə yoxdur ki, geniş İslam coğrafiyası zəngin Şuşa ilinə şahidlik edəcək. Xatırladaq ki, Prezident İlham Əliyev "Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" 21 noyabr 2023-cü il tarixində müvafiq sərəncam imzalayıb. Eyni zamanda, Nazirlər Kabineti tərəfindən geniş Tədbirlər Planı təsdiqlənib. Prezident İlham Əliyev bu etimadı yüksək dəyərləndirərək "Ölkəmizdə bir çox beynəlxalq tədbirlər, musiqi festivalları, mədəni tədbirlər keçirilir. Təbii ki, Şuşa şəhərinin İslam dünyasının mədəniyyət paytaxtı olması bizə əlavə imkan verəcək ki, öz mədəniyyətimizi həm müsəlman ölkələrinin ictimaiyyətinə, həm də dünya ictimaiyyətinə çatdıraq", - deyə vurğulayıb.

İl ərzində İslam dünyasının Mədəniyyət Forumunun təşkil edilməsi və bu çərçivədə Şuşada İslam Əməkdaşlığı Təşkilatının mədəni irsin mühafizəsinə həsr olunmuş beynəlxalq konfransının, "İslam dünyasının itirilməkdə olan qeyri-maddi mədəni irs nümunələri" mövzusunda dəyirmi masa və sərginin, digər təqdimatların keçirilməsi gözlənilir.

İslam ölkələrində "Şuşa günləri"nin keçirilməsi və tədbirdə folklor incəsənət qruplarının, Qarabağ xalçalarının, foto və rəsm əsərlərinin nümayişi, kitab təqdimatlarının keçirilməsi, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) qərargahında (Mərakeşin Rabat şəhəri - red.) Şuşaya həsr edilmiş birgə elmi və mədəni tədbirlərin təşkili də nəzərdə tutulub.

İslam ölkələrinin mədəniyyət paytaxtlarının "Şuşa şəbəkəsi"nin yaradılması və ilk görüşünün keçirilməsi, İslam dünyasında turizmin inkişafı mövzusunda beynəlxalq konfransın və "İslam ölkələrinin ortaq süfrəsi" kulinariya festivalının təşkili, ICESCO-nun "A-Hub Akselerasiya Proqramı"nın (2023-cü il üzrə) böyük finalının Azərbaycanda keçirilməsi də gözlənilən tədbirlər sırasındadır.

# Yeni Qarabağ formalaşır

Qalib Azərbaycan 44 günlük Vətən müharibəsində işğaldan azad edilmiş əraziləri cənnətə çevirməyi, Böyük Qayıdış proqramını layiqli şəkildə yerinə yetirməyi hədəfləyib. Ərazilərin bərpasına, burada genişmiqyaslı quruculuq işlərinin həyata keçirilməsinə müharibə başa çatandan dərhal sonra başlanıb. Aradan az vaxt ötsə də, reallaşdırılan layihələrin







miqyası çox böyükdür. Hər şey ən yüksək səviyyədə yenidən qurulur. Göz önündə yeni bir Qarabağ formalaşır. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bu yerlərə hər səfəri yeni infrastruktur obyektlərinin, yaşayış məntəqələrinin istifadəyə verilməsi ilə yadda qalır. Bu baxımdan dövlətimizin başçısının Mehriban xanım Əliyeva ilə birlikdə doğma Qarabağımıza son səfəri də istisna təşkil etmədi.

**Füzuli rayonunda su anbarının və avtomobil yolunun açılışı**

İşğaldan azad olunmuş ərazilərdə görülən bərpa və yenidənqurma işləri sırasında infrastruktur quruculuğu xüsusi yer tutur ki, bu da təsadüfi deyil. Zəruri infrastruktur yaradılmadan bəhs olunan ərazilərdə bərpa işlərini həyata keçirmək, iqtisadiyyatı inkişaf etdirmək, eyni zamanda Böyük Qayıdış proqramını reallaşdırmaq mümkün olmazdı. Prezident İlham Əliyev mayın 10-da Füzuli rayonunda Köndələnçay su anbarları kompleksinin təmir-bərpadan sonra açılışında iştirak edib.

Kompleksə bir neçə sututar daxildir. Füzuli rayonu ərazisində, Köndələnçay çayının məcrasında tikilmiş ümumi su tutumu 3,9 milyon kubmetr (faydalı həcmi 3,6 milyon kubmetr), hündürlüyü 14 metr olan Köndələnçay-1 su anbarı 1962-ci ildə istismara verilib. İşğaldan azad olunmuş ərazilərdə kompleks meliorasiya-irriqasiya tədbirləri çərçivəsində su anbarında müvafiq təmir-bərpa işləri həyata keçirilib.

1951-ci ildə istismara verilən Köndələnçay-2 su anbarının ümumi su tutumu 2,1 milyon kubmetr (faydalı həcmi 1,6 milyon kubmetr), hündürlüyü 23,35 metrdir. Layihə çərçivəsində su anbarında bir sıra təmir-bərpa işləri həyata keçirilib. Layihələndirmənin məqsədi bəndin qurğularının və mexaniki avadanlıqlarının sabit iş rejiminə gətirilməsi və bundan sonrakı istismarı üçün normal vəziyyətinin yaradılmasıdır.

Ümumi su tutumu 9,5 milyon kubmetr (faydalı həcmi 9 milyon kubmetr), hündürlüyü 25 metr olan Aşağı Köndələnçay su anbarı isə 1980-ci ildə istismara verilib. Burada bərpa işləri çərçivəsində zəruri əməliyyatlar həyata keçirilib, o cümlədən yarımstansiya və elektrik xətti bərpa olunub, Quruçay üzərində suqəbuledici qurğu tikilib. Quruçaydan gələn sular su anbarına yönəldiləcək.

Hazırda işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda aparılan işlərlə tanış olub, bu yolda inşa edilmiş birinci tunelin açılışında iştirak edib. Qeyd edək ki, yolun tikintisi layihəsi üzrə nəzərdə tutulmuş və ümumi uzunluqları (sağ və sol istiqamət) 12,7 kilometr təşkil edən 7 avtomobil tunelindən 6-sında qazma işləri artıq yekunlaşıb. Hazırda tuneldaxili işlər həyata keçirilir.

**Şuşanın məskunlaşdırılmasına start verildi**

Azərbaycan xalqının Şuşaya dərin mənəvi bağlılığı var. Prezident İlham Əliyevin bildirdiyi kimi, adam Şuşaya gələndə buradan getmək istəmir. Postmüharibə dövründə digər şəhər və kəndlərimiz kimi, Şuşa da yenidən dirçəlir. Artıq Şuşanın məskunlaşdırılmasına başlanıb. Son səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edib və şəhərə köçmüş ilk sakinlərlə görüşüblər.

Açılış mərasimində bildirildiyi kimi, ilkin mərhələdə birinci yaşayış kompleksinə köç qrafikinə əsasən 20 ailə olmaqla 88 nəfər köçürülüb. İyirmi üç binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Kompleksin təməli 2021-ci il avqustun 29-da qoyulub. Yaşayış kompleksi 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı və 7-si beşotaqlı olan 450 mənzildən ibarətdir.

Dövlət başçısının və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Şuşada inşa ediləcək üçüncü yaşayış kompleksinin də təməli qoyulub. Layihə çərçivəsində 17 yaşayış binasının inşası nəzərdə tutulub. Kompleks ümumilikdə 487 mənzildən ibarət olacaq.

Eyni zamanda Şuşa rayonunun Turşsu qəsəbəsinin təməli qoyub. Hazırda Turşsu qəsəbəsində 353 ailə, 1403 nəfər qeydiyyatdadır. Yenidənqurma layihəsinə əsasən Turşu qəsəbəsinin ümumi sahəsi 126,46 hektar olacaq. Birinci mərhələdə 79,37 hektar sahədə yenidənqurma işləri aparılacaq.

**Heydər Əliyev Fondunun töhfələri**

İşğaldan azad olunmuş digər ərazilərdə olduğu kimi, Şuşada da Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən tarixi mədəni-dini abidələrin bərpası həyata keçirilir. Bir sıra layihələrin icrası artıq tamamlanıb, digər layihələr üzrə isə işlər davam etdirilir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya növbəti səfər çərçivəsində həmin layihələrdən bəziləri ilə tanış olublar.

Məsələn, Heydər Əliyev Fondu Şuşada Çöl Qala məscidinin bərpası layihəsini həyata keçirir. "PAŞA Holdinq"in dəstəyi ilə aparılan bərpa işlərinə 2023-cü ildən başlanılıb.

Heydər Əliyev Fondu Şuşa şəhərində Üzeyir Hacıbəylinin ev-muzeyində bərpa işlərini davam etdirir. Üzeyir Hacıbəylinin evi Şuşada XIX əsrdə inşa olunub. Bina 1959-cu ildə ev-muzeyi kimi fəaliyyətə başlayıb. Görkəmli bəstəkar, peşəkar musiqi sənətimizin və milli operamızın banisi Üzeyir Hacıbəylinin ev-muzeyi Şuşa şəhəri işğal edilən tarixədək fəaliyyət göstərib. Muzeydə dahi bəstəkarın həyat və yaradıcılığı ilə bağlı 1700 eksponatdan erməni işğalçı qüvvələrinin vəhşiliyi nəticəsində yalnız 136-sı salamat qalıb, digərləri məhv edilib. Bərpa layihəsi çərçivəsində ev-muzeyə ikinci həyat verilir.

Aşağı Gövhər Ağa məscidinin bərpası da sürətlə davam etdirilir. Bərpa işləri zamanı yerli və beynəlxalq ekspertlər məscidin mövcud vəziyyətinə dair qiymətləndirmə və layihələndirmə aparıblar. Konservasiya və restavrasiya işləri məscidin ilkin memarlıq üslubuna uyğun olaraq həyata keçirilir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Şirin su" hamamının bərpadan sonra açılışında iştirak ediblər. Avstriyanın "Wehdorn Architekten" şirkətinin mütəxəssislərinin iştirakı ilə aparılan bərpa işləri zamanı ilkin hamama aidiyyəti olmayan hissələr sökülüb, bütün xarici və daxili hissələr - fasad, dam, qapı-pəncərə sistemi, döşəmə, tavan bərpa edilib.

Heydər Əliyev Fondunun dəstəyi ilə Şuşadakı Mamayı məscidində aparılan bərpa işləri də tamamlanıb. Mamayı məscidində tarixən mehrab sərt ağac materialından istifadə olunub. Bərpa zamanı bütün işlər tarixi görkəm nəzərə alınmaqla aparılıb.

**Laçınlılar üçün tarixi anlar**

İşğaldan azad olunmuş Laçın rayonunda bərpa və yenidənqurma işlərinin əhatə dairəsi genişlənir. Səfər çərçivəsində Prezidenti İlham Əliyev Laçın rayonunun Sus kəndində görülmüş işlərlə tanış olub, kəndə köçmüş sakinlərlə görüşüb.

1992-ci ilin may ayında Ermənistan silahlı qüvvələri tərəfindən rayon işğal olunan vaxt Sus kəndində 53 ailə - 203 nəfər yaşayırdı. Tamamilə yenidən tikilərək istifadəyə verilən kəndə ümumilikdə 59 ailə - 214 nəfərin köçürülməsi nəzərdə tutulur. Hazırda kəndə 20 ailənin (75 nəfər) köçürülməsi təmin olunub.

Təxminən 25 hektar ərazini əhatə edən kənddə 13 ikiotaqlı, 28 üçotaqlı, 14 dördotaqlı və 4 beşotaqlı fərdi ev tikilib. Kənddə 132 yerlik orta məktəb, 50 yerlik uşaq bağçası da inşa olunub. Sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün istirahət parkı və müxtəlif uşaq meydançaları yaradılıb.

Səfər çərçivəsində dövlət başçısının iştirakı ilə Laçın rayonunda "AzərEnerji" ASC-nin "Zabux" və "Qarıqışlaq" Kiçik Su Elektrik stansiyalarının (KSES) açılışları olub. İşğaldan azad olunmuş ərazilər yaşıl enerji potensialı ilə zəngindir. Bölgədə ümumi gücü 467 MVt olan 72 kiçik su elektrik stansiyasının yaradılması nəzərdə tutulub. Postmüharibə dövründə burada ümumi gücü 226 MVt olan 28 su elektrik stansiyası yenidən qurulub və ya yeni tikilib. Ümumi gücü 44 MVt olan 4 su elektrik stansiyasında isə avadanlıqların quraşdırılması və sazlama işləri icra edilir. Nəticədə, bütün region üzrə dayanıqlı elektrik təchizatı sxemi yaradılıb və COP29 tədbirinin keçiriləcəyi, "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmiş 2024-cü ilin birinci yarısında ümumi gücü 270 MVt olan 32 su elektrik stansiyası istismara veriləcək. Bu stansiyalarda il ərzində 600 milyon kilovat-saatdan çox yaşıl enerji istehsal ediləcək.

"Zabux" KSES 2,8 MVt, "Qarıqışlaq" KSES isə 4 MVt gücündədir. "Zabux" KSES-də il ərzində 8-9 milyon, "Qarıqışlaq" KSES-də il ərzində 11-12 milyon kilovat-saat yaşıl enerji istehsal ediləcək.

Yeni salınan yollar sayəsində bölgədə gediş-gəliş də asanlaşacaq. Hazırda Xankəndi-Şuşa-Laçın avtomobil yolunda işlər davam etdirilir.Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Avtomobil yolunun ümumi uzunluğu 34 kilometrdir. İkinci texniki dərəcəli yolda torpaq yatağının eni 15 metr, hərəkət zolağının hər birinin eni isə 3,75 metrdir. Yol üzərində 2 körpü, 4 tunel və suötürücü borular inşa olunacaq. Uzunluğu 440 və 1100 metr olan birinci və üçüncü tunellərin giriş və çıxış portallarında qazma işləri yerinə yetirilib. Digər iki tuneldə - 540 və 300 metr uzunluqlarındakı ikinci və dördüncü tunellərdə isə işlərə yaxın vaxtda başlanılacaq.

***Mübariz FEYİZLİ***

# 32 il Şuşanı xəyallarından çəkən rəssamın xoşbəxtliyi



Etiraf edim ki, nə zamansa "Şuşaya ilk köç başlayıb" cümləsini oxuyacağım ağlıma da gəlməzdi. Belə bir xoşbəxtliyin ya bizim qocalıq çağımıza, ya da övladlarımıza qismət olacağını düşünərdim, bəlkə də... Hətta 2020-ci ilin mayın 6-da "Sosial şəbəkədə Şuşa xatiratları" yazımı yazarkən o gün əlçatmaz, ünyetməz kimi bəhs etdiyim Şuşanın cəmi 6-7 ay sonra yağı işğalından azad olunacağını desəydilər, inanmazdım... Amma həqiqət budur ki, elə həmin il Şuşanın işğal tarixini andığımız son il oldu. O ildən başladı təqvimimizə Şuşanın və bütün Qarabağın azadlıq günlərinin həkki...



Bu gün isə illərlə Şuşanın işğal tarixi kimi yad etdiyimiz may ayını artıq Şuşaya qələbədən sonra ilk köçün tarixi kimi anacağıq.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edib, şəhərə köçmüş ilk sakinlərlə görüşdülər.

Qeyd edək ki, ilkin mərhələdə birinci yaşayış kompleksinə köç qrafikinə əsasən 20 ailə olmaqla 88 nəfər köçürülüb. İyirmi üç binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Kompleksin təməli 2021-ci il avqustun 29-da qoyulub. Yaşayış kompleksi 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı və 7-si beşotaqlı olan 450 mənzildən ibarətdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya ilk köç edən ailələrlə görüşdülər. Həmin ailələr arasında yuxarıda adını çəkdiyim "Sosial şəbəkədə Şuşa xatiratları" yazımın qəhrəmanlarından biri, Sumqayıt Regional Mədəniyyət İdarəsi Şuşa Dövlət Rəsm Qalereyasının direktoru, rəssam Rövşən Bayramov da vardı. O Rövşən Bayramov ki, demək olar, bütün həyatını, yaradıcılığını Şuşanın ağ kətan üzərindəki təsvirinə həsr edib. 32 illik həsrət dövründə Şuşanı xatirələrindən, yaddaşından köçürüb vərəqlərə... Bu gün isə 32 illik həsrətin sonu, Şuşalı günlərin başlanğıcıdır onun üçün. Onun sevinc qarışıq həyəcanı Prezidentlə qısa dialoqunda da özünü göstərirdi: "Möhtərəm cənab Prezident, bu tədbirə, bugünkü xoşbəxtliyi bizə yaşatdığınıza görə Sizə çox minnətdaram. Otuz iki ildir ki, mən Bakıda oturub Şuşanı xəyalən öz rəsmlərimdə əks etdirirdim. Bayaq yolda gələndə maşından baxıram, deyirəm, 32 ildən sonra mən həmin mənzərəni, həmin Şuşanı gözümlə görəcəyəm. Düzdür, Bakıda işlədiyim dövrdə xarici ölkələrdə də sərgilər təşkil etmişəm. Ancaq mənim mövzum Şuşa olubdur. İndiyədək demək olar ki, Bakıda bu illər ərzində 150 rəsm əsəri çəkmişəm. Hamısını Şuşa Dövlət Rəsm Qalereyasına hədiyyə etmişəm. Sağlıq olsun, Şuşada rəsm qalereyasını açdıqda, həmin əsərləri orada nümayiş etdirəcəyik".

Bəli, Rövşən bəyin bundan sonrakı amalı, məqsədidir bu. Sevincini qəzetimizlə bölüşən rəssam yeni planları ilə də müjdələdi bizi:

"Mənə zəng edib deyəndə ki, Şuşaya birinci gedəcəklər siyahısındasınız, bir anlıq duruxdum. Şuşa gözümün önünə gəldi. Sevincimin həddi-hüdudu yox idi. 32 il xəyalımda çəkdiyim Şuşanı artıq öz gözlərimlə görüb rəsm əsərləri yaradacağam. Şuşanın dolamalarını qalxdıqca 32 il əvvəlki Şuşa qoxusunu hiss etdim. Düzdür, bəzi məhəllələr qismən qalıb, bəziləri isə dağılıb. İnşallah, düzələr.

Tədbirdə açarların təqdimetmə mərasimi oldu Mənim adım çəkiləndə Prezidentimizə yaxınlaşdım. Cənab Prezident gülər üzlə açarları mənə təqdim etdi. Bundan böyük xoşbəxtlik ola bilməzdi. Şuşada "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında iştirak etdik. Bütün bunlar həyatımın ən unudulmaz anlarından idi".

Rövşən Bayramov Şuşanın məşhur 17 məhəlləsini çəkdiyi rəsm əsərləri ilə də tanınır. Həm də o bu əsərləri Şuşasız illərində, yalnız öz yaddaşına güvənərək çəkib. İndi də həmin əsərləri davam etdirmək fikrindədir:

"Əsərlərim arasında Şuşa məhəllələrindən biri yarımçıq qalmışdı. Onu tamamlayacağam. Gələcək planlarım arasında şəhərdə Rəsm Qalereyasında yeni çəkilmiş və çəkiləcək rəsm əsərlərimi nümayiş etdirmək var. Bundan sonra fikrimdə var ki, "Yeni və köhnə Şuşa" mövzusunda qrafik əsərlər yaradım və həmin əsərləri nümayiş etdirim".

Rəssam deyir ki, düşmən qədim Şuşanı dağıtsa da, o, öz əsərləri ilə bu gün Şuşanı ziyarət edən gənclərimizə, əcnəbi qonaqlarımıza öz əsərləri ilə həmin Şuşanı da tanıdacaq. Gözəl arzu, saf niyyətdir. Bizə "uğur olsun" demək və qismətsə, zamanı gələndə həmin əsərlərə canlı-canlı tamaşa etmək düşər.

Bir daha Rövşən Bayramov da daxil olmaqla, öz azad Şuşasına, ata-baba yurduna qovuşan bütün soydaşlarımızı təbrik edir, aid olduqları torpaqda firavan ömür diləyirik!

*Şahanə MÜŞFİQ*

# Şuşadan bütün dünyaya ...

## İlham Əliyev: Heç kim bizə diktə edə bilməz! Bizim daxili işlərimizə müdaxilə edə bilməz!

**Müasir Azərbaycan özünün ən güclü, ən qüdrətli dövrünü yaşayır. Regional və qlobal layihələrin təşkilatçısı və təşəbbüskarı qismində çıxış edən ölkəmiz yeni, innovativ çağırışlara tam cavab verir. 44 günlük Vətən müharibəsində qazanılan qələbə, antiterror tədbirləri zamanı əldə olunan nailiyyət ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin olunması ilə yanaşı, yeni regional reallıqların formalaşmasına da yol açıb. Beynəlxalq münasibətlər sisteminin ən mühüm aktorlarından biri sayılan Azərbaycan qısa zamanda mühüm bir coğrafiyada yeni iqtisadi təsəvvürlər yaratdı - Avropanın enerji təhlükəsizliyində, Cənubi Qafqazın təhlükəsiz inkişafında, regional sabitliyin formalaşdırılmasında, Qərb-Şərq iqtisadi aortasının yaradılmasında, Orta Dəhliz kimi mühüm və strateji layihənin ərsəyə gəlməsində və şaxələndirilməsində əsaslı rol oynadı.**

### Ulu Öndərin ən böyük arzusu...

Azərbaycan bütün bu inkişafa qısa zaman kəsiyində nail oldu - hətta yaşadığı mühüm problemlərə, 30 ilə yaxın işğaldan əziyyət çəkməsinə baxmayaraq bu nailiyyətlərə imza atıldı. 1990-cı illərin əvvəlində baş verən siyasi proseslər hər kəsin yaddaşındadır - səriştəsiz insanların dövlət strukturlarında vəzifə tutması, xaos, özbaşınalıq, hakimiyyət və siyasi böhran qorxaq, satqın, xain insanların dövlət rəhbərliyində təmsil olunması Azərbaycan torpaqlarının işğalına yol açdı. AXC-Müsavat cütlüyünün apardığı xəyanətkar və öz maraqlarına xidmət edən siyasət şəhərlərimizin, kəndlərimizin işğalına yol açdı. 1993-cü ildə Heydər Əliyevin xalqın təkidli tələbi ilə qayıdışı Azərbaycanı məhv olmaqdan xilas etdi, ölkəmizi inkişaf yoluna çıxardı, gələcək qələbələrin təməlini atdı. Prezident İlham Əliyev mayın 10-da Şuşada birinci yaşayış kompleksinin açılışı və şəhərə köçmüş ilk sakinlərlə görüşündə bildirib ki, Onun ən böyük arzusu bu reallıqları görmək idi, işğala son qoymaq idi və məhz Onun fəaliyyəti nəticəsində biz inkişaf yoluna qədəm qoyduq.

Əldə edilən uğurların əsasında isə xalq-dövlət birliyi, xalqın ölkə Prezidentinə sevgisi və inamı, Heydər Əliyev siyasi kursuna etimadı dayanır. Azərbaycan xalqı hər zaman öz Liderinin atdığı addımları dəyərləndirir. Dövlət başçısı isə bu etimadı olduqca yüksək qiymətləndirir - Şuşaya köçən ilk sakinlərlə görüş məhz bu qələbənin, sevincin, gələcəyə inamın ifadəsidir.



### İradəmizdən kənar bu bölgədə heç bir məsələ həll oluna bilməz



Bəli, Azərbaycanın qələbəsi həm də beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsinə, ədalətin bərpasına yol açdı. Hətta işğal dövründə belə beynəlxalq hüququn tələblərinin tətbiqi uğrunda mübarizə aparan Azərbaycan sülhə sədaqət nümayiş etdirib. Azərbaycan hər zaman bəyan edib ki, biz müharibə istəmirik. Nəhayətdə məsələnin həllində "vasitəçi" olduğunu iddia edənlərin susqunluğu, çox zaman haqsızlığa yol verməsi Azərbaycanı öz hüquqlarını müdafiə etməyə istiqamətləndirdi - 30 ilə yaxın icrası həyata keçirilməyən BMT TŞ-nin məlum 4 qətnaməsi məhz Azərbaycan tərəfindən icra edildi. Diqqət yetirsək, uzun illər Azərbaycana qarşı fərqli standartlardan çıxış edən beynəlxalq təsisatlar ədalətin bərpası üçün heç bir təsiredici vasitələrdən istifadə etməyib. Bu mənada, ATƏT-in tarixə qovuşmuş "Minsk qrupu"nun fəaliyyət(sizliy)i xüsusilə seçilir. Xatırladaq ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin tənzimlənməsi üzrə birbaşa vasitəçi qismində tanınan "Minsk qrupu"nun ötən dövr ərzində bölgəyə yüzlərlə, bəlkə də minlərlə səfərləri gözdən pərdə asmağa xidmət etdi, problemin həllində iştirak isə ümumiyyətlə nəzərə çarpmadı. İllər boyu yalnız turistik səfərləri ilə yadda qalan, vasitəçi olsa belə, Ermənistanın maraqlarının açıq müdafiəçisinə çevrilən, hətta işğalçı ilə işğala məruz qalmış arasında bərabərlik işarəsi qoymağa çalışan ATƏT-in Minsk qrupu hüquqları pozulan azərbaycanlıları görməzdən gəldi. Aparılan danışıqlarda Ermənistana təzyiq göstərməyi, etdiyi cinayətlərə görə bu ölkədən hesab tələb etməyi yada belə salmayan Minsk qrupunun fəaliyyətsizliyi isə həm də beynəlxalq hüquqa qarşı qurumun hörmətisizliyi idi. Azərbaycanın haqq savaşında qələbəsi isə ATƏT-in Minsk qrupunu tarixin arxivinə yolladı. Təəssüfləndirici haldır ki, vaxtilə Minsk qrupunun çətri altında Ermənistana havadarlıq edən Fransa, ABŞ kimi ölkələr bu fəaliyyətlərini indi fərqli formada davam etdirirlər. Bu gün də regionda davamlı sülhün formalaşmasına mane olan qüvvələrin apardığı siyasət destruktizmə, kataklizmlərə hesablanıb. Amma bu gün bölgənin inkişafı, yeni reallıqların formalaşması, siyasi-iqtisadi münasibətlər sisteminin qurulması Azərbaycanın iradəsindən asılıdır. Prezident İlham Əliyev Şuşaya köçmüş ilk sakinlərlə görüşündə bildirdi ki, biz heç vaxt müharibə istəməmişik, bu gün də istəmirik: "Bizə müharibə lazım deyil, bizə torpaqlarımız lazım idi. Minsk qrupunun 28 ildəki fəaliyyəti Azərbaycan xalqına qarşı yönəldilmişdir. Onların yalançı vədləri və fəaliyyətsizliyi təsadüfi deyildi. Onlar məsələni həll etmək istəmirdilər. Onlar bu torpaqları ermənilərə vəd vermişdilər. Necə ki, sovet dövründə erməniпərəst Qorbaçov və ondan sonra Yeltsin bu torpaqları ermənilərə vəd vermişdilər və Fransa da, Amerika da, həmçinin. Bu gün də baxın bizə qarşı, kimlər, necə deyərlər əsas rol oynayırlar - Fransa və Amerika. Bunu açıq demək lazımdır, daha çox Fransa. Onlar da bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil".

### Hər kəs bilir ki, biz nəyə qadirik

Bu gün xarici təsirlərin müdaxiləsi nəticəsində regionda bir sıra hərəkətlənmələr qeydə alınır. Məsələn, sülh prosesinin aktiv müzakirəsi aparıldığı, iki dövlətin müvafiq delimitasiya komissiyalarının razılaşmalar əldə etdiyi, sülh danışıqlarının mühüm nəticəyə ümid yaratdığı bir zamanda bəzi xarici qüvvələr Ermənistandakı daxili proseslərə müdaxilə etmək istəyir - dünənə qədər Ermənistanı silahlandıran bu qüvvələr bu gün daxili qarşıdurmalar yaratmaqla sülhü gecikdirməyə çalışırlar. Təəssüfləndirici haldır ki, silahlanma məsələsi son günlərdə ən mühüm aktuallıq daşıyan məsələlərdən birinə çevrilib - başda Fransa olmaqla bəzi güclər əsasında Cənubi Qafqazda qeyri-sabit siyasi vəziyyət yaratmaq arzusu ilə addımlar atır və bu addımların effektivliyini artırmaq üçün bir sıra qaranlıq məsələlərə baş vururlar. Ermənistana aktiv şəkildə silah ixrac edilməkdədir. Bunların arasında zirehli texnikalar və hava hücumu üçün əlverişli sayılan qurğular daha geniş maraq doğurur. İlk baxışdan Ermənistana "yardım" görüntüsü yaradan Fransanın əsl məqsədi fərqlidir - onlar Cənubi Qafqazda müharibənin, atəş səslərinin kəsilmədiyini hər kəsə nümayiş etdirmək istəyirlər. Amma Ermənistandakı baş qaldırmış revanşist qüvvələr və onları himayə edənlər unutmamalıdır ki, "dəmir yumruq" hər zaman bölgədə sabitliyin və sakitliyin keşiyindədir. Siyasi "dəstəkdən" və ya hər hansı "silahdan" ruhlanaraq yenidən müharibə arzusuna düşmək istəyənlər böyük səhvə yol vermiş olarlar. Prezident İlham Əliyev Şuşada bildirib ki, əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin: "Hər halda hər kəs bilir ki, biz nəyə qadirik, Ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz".

### Nəyi lazım biliriksə, onu da edəcəyik

Bu gün Azərbaycan yenə də bölgədə sülhün, sabitliyin formalaşması üçün səy göstərir. Dövlətimiz bölgənin əməkdaşlıq potensialına yeni töhfələr verir - yaşıl enerji tərəfdaşlığı, yeni Şərq-Qərb tranzit imkanları təqdim olunur. Bunun üçün isə bizim bir şərtimiz var - Ermənistan sülhü imzalamalıdır. Bu isə Ermənistanın özünün maraqlarına xidmət edir - havadarlarına "güvənməklə" nələri itirdiyini dərk edən İrəvan üçün bu bir şansdır. Azərbaycan hər zaman bəyan edib ki, biz ədalətli sülhün tərəfdarıyıq. Ədalətli sülhün konturları isə Azərbaycan tərəfindən irəli sürülüb. İkinci Qarabağ müharibəsində qələbə qazanan tərəf olsaq da, biz ədalətin bərpasını istəyirik - sərhədlərin müəyyənləşdirilməsi üçün səy göstərik. Ermənistan isə özünün qeyri-konstruktiv mövqeni davam etdirməyə çalışsa -nələr ilə qarşılacağını bilir. Dövlət başçısı qeyd edib ki, nəyi lazım biliriksə, onu da edəcəyik. İkinci Qarabağ müharibəsindən sonra biz Ermənistana demişik ki, gəlin, sərhədi ədalətli müəyyən eləyək: "Yox, istəmirsinizsə, onda biz deyəcəyik, harada istəyirik orada da sərhəd olacaq. Neyləyəcək, kimə zəng edəcək, lap 100 dəfə zəng etsin, nəticəsi nə olacaq?

Həm Azərbaycan xalqına, həm də bu bölgəyə maraq göstərənlərə bir daha demək istəyirəm ki, bizimlə hesablaşmadan burada bir addım da atılmamalıdır bundan sonra. Əminəm ki, mənim sözümü eşidirlər, bilirlər mən nəyi deyirəmsə, onu da edirəm".

### Bizimlə hesablaşmasalar, peşman olacaqlar

Prezident İlham Əliyev öz iradəsini ortaya qoyaraq Azərbaycanın taleyi ilə bağlı qurulan və 30 il aparılan bütün ssenariləri alt-üst etdi. Bu gün hamı bu iradə ilə hesablaşır. Prezident İlham Əliyev Cənubi Qafqazda yeni geosiyasi reallıq və status-kvo yaradıb. Hazırda Cənubi Qafqazın güclü və lider dövləti olan Azərbaycanın iradəsindən kənar hər hansı planın həyata keçirilməsi qeyri-mümkündür. Prezident Şuşadakı çıxışında bildirdi ki, burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır: "Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar, peşman olacaqlar".

*Pərviz SADAYOĞLU*

# Böyük Qayıdışın yeni ünvanı - Xocalı!

## Evlər bu tarixdə təhvil veriləcək...



Ordumuzun 2023-cü ilin 19-20 sentyabr tarixində keçirdiyi birgünlük antiterror tədbirləri nəticəsində Xocalı, Xocavənd, Xankəndi və Əsgəran şəhərləri separatçılardan təmizlənərək işğaldan azad edilmişdi. Artıq Xocalı qurbanlarının xatirəsi həmişəkindən fərqli olaraq qələbə əhval-ruhiyyəsi ilə qeyd edilir. Qaçqın, köçkün sözləri Böyük Qayıdış ifadəsi ilə əvəz olunur.

İşğaldan azad olunmuş torpaqlarımızın əsl sahiblərinin köçü bir müddətdir ki davam edir. Böyük Qayıdışın növbəti ünvanı isə Xocalı olacaq. Bununla da 30 ilə yaxın doğmalarının taleyindən narahat olan Xocalı qurbanlarının ruhları rahatlıq tapacaq. Vaxtilə soyqırımı və dağıntılara məruz qoyulan Xocalının azad olunmasından dərhal sonra bərpasına başlanılması mənəvi baxımından çox böyük əhəmiyyət daşıyır.

Xatırladaq ki, hələ bu ilin yanvar ayında Bakı Abadlıq Xidmətinin Memarı Elnur Abdullayev Xocalıda tikinti işlərinin yüksək sürətlə davam etdiyini bildirmişdi. O, qeyd etmişdi ki, Xocalı şəhərinin mərkəzində 283 evdə əsaslı təmir-bərpa işi aparılır. Eyni zamanda Xocalı şəhərinin bütün kommunikasiya xətləri qurulur, yeraltı işləri həyata keçirilir.

Nəhayət gözlənilən günə olduqca az qalıb. Belə ki, yenidənqurma işlərin davam etməsi nəticəsində Xocalının Malıbəyli kəndi müasir görkəmə qovuşur. Hazırda 120 fərdi yaşayış evində işlər davam etdirilir. Qaz, işıq və su xətləri çəkilir. Bu il isə Malıbəyliyə köç başlayacaq. Tikilən ilk 50 evin yay aylarında təhvil verilməsi planlaşdırılır.

*Yeganə BAYRAMOVA*

# Cəmiyyətin mühüm dayağı...

## Ölkəmizdə söz azadlığı necə qorunur?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır

Fikir və ifadə azadlığı demokratik cəmiyyətin mühüm dayaqlarından biridir. Eyni zamanda söz azadlığının tərəqqisi hər bir fərdin inkişafı üçün əsas şərtlərdən birini təşkil edir. Bu baxımdan da söz və fikir azadlığı insanların ayrılmaz hüququ sayılır. Azad media sivil, demokratik cəmiyyətdə vətəndaşların ictimai forumu rolunu oynayır. Belə ki, vətəndaş öz fikir və düşüncəsini sərbəst ifadə etməklə cəmiyyətin tərəqqisinə töhfə verir. Buna görə də hər sivil dövlətdə azad, müstəqil medianın təşəkkül tapması olduqca mühüm faktdır.

Azərbaycan hər zaman sivil, demokratik dəyərlərə sadiqlik nümayiş etdirib. Ölkəmizdə söz və fikir azadlığının, azad medianın bərqərar olmasına böyük önəm verilir. Bu bir həqiqətdir ki, azad mediaya sahib olmayan cəmiyyətlərin davamlı iqtisadi, siyasi inkişafı qeyri-mümkündür. Bu həqiqəti müasir dünyada hər kəs qəbul edir. Lakin söz, fikir, düşüncə və media azadlığı, onun məğzi yalnız cəmiyyət tərəfindən dərk olunduğu zaman real fayda verir, o süni, hibrid halda yalnız ziyan gətirir.

**Azad mediaya sahib olmağımızla fəxr edirik...**

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən millət vəkili Aqil Məmmədovun sözlərinə görə, ictimai-siyasi fəallığı ilə seçilən demokratik toplumlar azad medianın hüquqi bazasını qurmağa və daim təkmilləşdirməyə çalışırlar: “Lakin həqiqətin gözünə dik baxmaq lazımdır. Dünyanın heç bir ölkəsində azad medianın yaranması və təşəkkülü prosesi asan olmayıb. O xalqlar ki, söz, fikir azadlığı, plüralizmə əsaslanan medianın sərbəst fəaliyyət göstərməsinin ümumi mənafe üçün faydalı və alternativsiz olduğunu qəbul ediblər, təbii ki, onlar vətəndaş cəmiyyəti quruculuğunda daha üstün mövqelər qazana biliblər. Azərbaycan xalqı sivil, demokratik düşüncəyə sahib olan xalqlardandır ki, söz, media azadlığını və tolerantlığı özünün mənəvi, əxlaqi və ictimai dəyərlərinə, həyat və düşüncə tərzinə çevirə bilib. Bu gün biz haqlı olaraq azad mediaya sahib olmağımızla fəxr edirik. Qeyd edək ki, bu səviyyəyə çatana qədər milli mətbuatımız mürəkkəb təkamül yolu keçib. Ölkəmizdə söz, düşüncə azadlığı bir mütərəqqi ideya olaraq, öncə ictimai-fəlsəfi fikirdə inkişaf edib. Azərbaycanda ilk dəfə dahi mütəfəkkir Mirzə Fətəli Axundov söz və mətbuat azadlığının milli tərəqqi üçün vacib olduğunu söyləyib. Xalqımızın fikir və qələm dühaları - Həsən



bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli və başqaları ilk növbədə məhz, mətbu nəşrlər vasitəsilə milli intibahımız yolunda böyük xidmətlər göstəriblər”.

**Söz azadlığı əhalinin rifahı ilə harmonik inkişaf etməlidir**

Deputatın sözlərinə görə, təqdirəlayiq haldır ki, Azərbaycan dövləti beynəlxalq birliyin üzvü olaraq, söz və düşüncə azadlıqlarını nəzərdə tutan bütün mühüm sənədləri imzalayıb və onların icra olunmasını təmin edir: “Ölkəmiz Ümumdünya İnsan Hüquqları üzrə Bəyannaməni və “İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında” Avropa iqtisadi islahatlarla paralel aparılıb. Azərbaycan ötən əsrin sonlarında ikinci dəfə öz istiqlalına qovuşanda, təbii ki, söz, fikir və media Konvensiyasını və başqa vacib hüquqi-normativ sənədləri təsdiq edib. Azərbaycanda 1996-cı ildə “Mətbuat azadlığı haqqında”, 2003-cü ildə “İnformasiya azadlığı haqqında” qanunlar qəbul edilib. Bu tarixi sənədlər dövlət orqanlarını, o cümlədən özəl, fiziki və hüquqi şəxsləri informasiya sahibi hesab edir və onların üzərinə konkret vəzifələr qoyur. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər ölkəmizdə söz azadlığının daha da güclənməsi, medianın azad, sərbəst fəaliyyət göstərməsi üçün davamlı işlər görülür. İndi dünyada çox az ölkə tapılar ki, azad media, onun maddi bazasının möhkəmləndirilməsi, jurnalistlərin öz peşə vəzifələrini sərbəst həyata keçirmələri, maddi-məişət şəraitlərinin yaxşılaşdırılması üçün Azərbaycanda olduğu qədər şərait yaradılsın.

Burada bir məqamı da vurğulamaq istərdim. Söz, fikir və düşüncə azadlığı ölkənin inkişafı, əhalinin rifahı ilə harmonik inkişaf etməlidir. Əks halda, cəmiyyətdə radikallaşma baş verə bilər”.

***Y.BAYRAMOVA***

# Dusenin fransızsayağı erməni sevdası...

## Qərbi Azərbaycan İcması Fransadan destruktiv əməllərinə son qoymağı tələb edib

Fransanın hazırkı mövqeyi Cənubi Qafqazda sülhə və təhlükəsizliyə böyük təhdiddir. Ermənilərin maraqları naminə bu ölkə beynəlxalq hüquqa hörmətsizlik edir, bəşəri dəyərləri ayaqlar altına atır. Bu, o deməkdir ki, Fransa hökuməti və parlamenti, bu ölkənin ayrı-ayrı siyasi dairələri uzun illərdir açıq irqçi, azərbaycanofob, türkofob və islamofob fəaliyyət nümayiş etdirirlər. Bu yanaşma artıq Fransanın dövlət siyasəti səviyyəsinə çatıb. Eyni zamanda, Fransa parlamentinin qərarları beynəlxalq hüququn normalarına və prinsiplərinə zidd olmaqla, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı qərəzli və ədalətsiz addımdır. Fransa parlamenti hələ 2020-ci ilin noyabrında - Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi zəfərdən qısa müddət sonra o vaxt Qarabağdakı separatçı rejimin tanınmasının zərurəti haqda qətnamə qəbul etmişdi. Eləcə də, ordumuz Qarabağda erməni separatizminin kökünü kəsərək suverenliyimizi tam bərpa etdikdən sonra rəsmi Paris ölkəmizə qarşı qərəzini daha da artırıb. Fransanın Ermənistanı silahlandırması isə Cənubi Qafqazda yeni müharibə təhlükəsi yaradır.

Bugünlərdə isə Fransanın Lion şəhərinin meri Qreqori Duse erməni diasporunun bir qrup radikal üzvü ilə birlikdə “böyük Ermənistan” adlanan sərsəm xülyanın xəritə təsviri qarşısında foto çəkdirərək region ölkələrinin ərazi bütövlüyünə qarşı qəsd etmiş və bölgədə gərginliyi artırmaq üçün Ermənistandan alət kimi istifadə etməyə cəhd göstərib.

Bu, Qreqori Dusenin ilk ermənipərəst davranışı deyil.



O, həmişə ermənilərə, Qarabağ separatçılarına dəstək verib. Xatırladaq ki, hələ ötən il aprelin əvvəlində Xankəndi-Laçın yolunda vətəndaş cəmiyyəti fəallarının keçirdiyi ekoaksiyasının davam etdiyi zaman Lion meri İrəvana səfər edərək orada separatçıların nümayəndələri ilə görüşmüşdü. Həmin hadisələr zamanı Qreqori Duse, görünür, Azərbaycanın sərhədlərini qanunsuz keçməyə cəsarəti çatmayıb, Xankəndiyə gələ bilməsə də, separatçılarla İrəvanda görüşərək təlimatlarını vermişdi. Amma fransız mer və onunla həmfikir olanlar bilməlidirlər ki, daha əvvəlki xəyallar və rəvayətlər dövrü bitib, Azərbaycan öz sərhədlərini əminliklə qoruyur, artıq Qarabağ separatçılardan da tam təmizlənib.

Bununla belə, görünür ki, fransız siyasilər beynəlxalq hüquq və qanunları kobud şəkildə pozurlar. Lion şəhər merinin uydurma “böyük Ermənistan” xəritəsinin önündə şəkil çəkdirməsi də növbəti təxribatdır. Əslində Ermənistan cəmiyyəti anlamlıdır ki, bu kimi tendensiyalar məhz özlərinə zərər vurur. Çünki belə xəyallarla yaşamaq, başqa xalqların torpağına göz dikmək onları fəlakətə sürükləyir. Bu səbəbdən də fransız Qreqori Duse kimilərinin təxribatçı davranışlarına, ümumilikdə Fransanın yalan vədlərinə inanmamalıdırlar.

Yeri gəlmişkən, Qərbi Azərbaycan İcması Lion şəhər merinin sözügedən təxribatı ilə bağlı bəyanat verib. Bəyanatda Fransanın siyasi dairələri, təxribatçı əməllərini davam etdirdiyi qeyd olunub: “Xatırladaq ki, Qreqori Duse vaxtilə məlum separatçı dairələrlə müntəzəm görüşlər keçirərək Azərbaycanın ərazi bütövlüyünə qarşı fəaliyyətə fəal dəstək verib. Bundan əlavə, Lion meri Ermənistanda Azərbaycan mədəni irsinin yer üzündən silinməsində yaxından iştirak edir. Məhz onun təşəbbüsü ilə Lion meriyası və İrəvan bələdiyyəsi İrəvandakı tarixi Təpəbaşı məhəlləsinin qalıqlarının dağıdılması layihəsinə başlamışlar”.

Qərbi Azərbaycan İcması Qreqori Dusenin təxribatçı hərəkətlərini və Fransa siyasi dairələrində geniş vüsət almış azərbaycanofobiyanı kəskin şəkildə qınayıb, Fransadan destruktiv əməllərinə son qoymağı tələb edib.

Onu da qeyd edək ki, Fransada şəhər bir çox merlərinin ermənipərəst olması sanki “ənənəyə” çevrilib. Buna misal olaraq Parisin meri Ann İdalqonu da göstərmək olar. Bu, həmin İdalqodur ki, 2020-ci ilin Vətən müharibəsindən dərhal sonra Paris meriyasının qondarma “Dağlıq Qarabağ Respublikası”nı tanımağa hazırlaşdığı ilə bağlı bəyanat yaymışdı. Ötən il Laçın yolunda quraşdırılan sərhəd buraxılış məntəqəsinə görə Azərbaycanı “hədələyən” İdalqo hətta Fransadan Laçın məntəqəsi istiqamətində göndərilən “TIR karvanı”nına da başçılıq etmişdi. Paris merinin Ermənistanın həm əvvəlki, həm də indiki siyasi hakimiyyəti ilə sıx əlaqədədir, onun ən yaxın adamı, müavini isə Fransada erməni təşkilatlarının koordinasiyası şurasının rəhbəri Jan-Mark Ara Tonoyanın qızı Anuş Toronyandır.

Əlbəttə, belə faktların sayını kifayət qədər artırmaq mümkündür. Bütün bunlar deməyə əsas verir ki, Fransa Cənubi Qafqazla bağlı məkrli planlar həyata keçirməyə çalışır. Rəsmi Parisin qərəzli mövqeyi Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə xidmət edir, sülh gündəliyinin həyata keçirilməsinə, iki ölkə arasında münasibətlərin normallaşmasına zərbə vurur.

***NARDAR***

# Çin iqtisadi gücə necə çevrildi?

Ərazisinin böyüklüyünə görə dünyanın 3-cü ölkəsi, iqtisadiyyatının həcminə görə isə 2-cisi olan Çin Xalq Respublikası növbəti onillikdə qlobal iqtisadiyyatda birinciliyi hədəfləyir. Buna ölkənin resurs imkanları, mövcud iqtisadi potensialı və ümumdünya ticarət sistemində aramsız artan gücü də zəmin yaradır. Çin yeganə ölkədir ki, son 40 ildə iqtisadi artım tempini 5 faizdən aşağı salmadan inkişaf edir. 1978-ci ildə qəbul edilmiş iqtisadi islahatlar proqramlarının icrası nəticəsində Çin iqtisadiyyatı hər il orta hesabla 6 faizlik artımla böyüyərək son 40 ildə 240 faizə yaxın artıb. ÜDM-nin həcminə görə dünyada ikinci, alıcılıq qabiliyyəti pariteti göstəricisinə görə isə ilk yeri tutan bu ölkə həmçinin dünyada ən böyük ixracatçı və idxalçıdır. Bu isə qlobal bazarda müstəqil və müstəsna təsir imkanlarını daha da möhkəmləndirir.

Çinin iqtisadi göstəricilərinin arxasında güclü resurslarla yanaşı, irihəcmli investisiyalar da dayanır. Bank sistemi tərəfindən maliyyələşdirilən investisiyaların axını son onillikdə daha da artıb ki, hazırda investisiyalar ÜDM-in təxminən üçdə birini təşkil edir. İqtisadi meqapolis mərkəzi olan Şanxay artıq dünyanın maliyyə və bank mərkəzinə çevrilməkdədir.



Çin qlobal iqtisadiyyatı idarə edən nəhəng güclərdən biri kimi çoxşəbəkəli nəqliyyat-enerji-tranzit qovşaqlarının da sahibidir. Yeni İpək Yolunun müəllifi kimi rəsmi Pekin Avrasiyanın müasir logistika coğrafiyasını cızır. “Belt and Road” (Bir kəmər, Bir Yol) layihəsi ilə dünyanın böyük bir coğrafiyası və 40-dan artıq ölkə üzərində nəhəng infrastruktur və ticarət şəbəkəsini yaradır. Şanxay Əməkdaşlıq Təşkilatı, Dünya Ticarət Təşkilatı, Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı, BRICS və G20 də daxil olmaqla bir çox təşkilatın aparıcı üzvü kimi dünyanın iqtisadi-ticari gündəliyini də müəyyən edir. Çin indiyə qədər əsas etibarilə Asiyanın iqtisadi lokomotivi hesab edilirdisə, hazırda Avrasiya və Amerika qitəsinin güc flaqmanı statusuna malikdir.

Çinin əsas hədəfi 2035-ci ilə qədər qlobal ÜDM-də birinciliyə möhür vurmaqdır. İqtisadiyyatın dayanıqlılığı və texnoloji inkişaflar ölkəni dünya iqtisadiyyatının ən böyük gücünə çevirmək ehtimallarına da əsaslar verir. “Huawei”, “Tencent”, “Alibaba” və digər şirkətləri dünya bazarında İT və elektron ticarətin atributları sayılır.

Ölkənin ən nüfuzlu iqtisadi analitika qrupu hesab edilən Çonyanq Maliyyə Araşdırmaları İnstitutunun hesablamalarına görə, hazırkı illik 5-6 faiz iqtisadi artım tempinin qorunub saxlanması sayəsində 2035-ci ildə ÜDM-in həcmi orta hesabla 30,5 trilyon dollara çatacaq. Hazırda ölkənin ÜDM-nin həcmi 18 trilyon dollara bərabərdir. Çinin əsas rəqibi ABŞ-ın ÜDM-nin həcmi isə 26 trilyon dollar təşkil edir.

***ELBRUS***

KÖŞƏ

# İnsanın HAQQI...

## Səfir Libbi Qubadın yox, şəhid valideynlərinin yanında olmalı idi!

### İnsanın yaşamaq haqqı!

Bu hüquq hər hansı bir qanunvericilik və ya konvensiya, məcəllə və ya konstitusiya ilə verilmir və ya tanınmır - yaşamaq hüququ bəşərin qeyri - sosial hüququdur, təbii haqqıdır.

1990-cı illərin əvvəlinin Azərbaycanını xatırlayaq - qanqada, minlərlə günahsız, insanların qanına qəltan edilməsi, öz yurd-yuvasından qovulması, sərgərdan şəkildə evsiz-eşiksiz qalması - budur tablo... Müasir leksikonla ifadə etsək, yüz minlərlə insan öz evində, öz torpağında yaşamaq hüququndan məhrum edildi, on minlərlə insanın isə yaşamaq hüququ qəsb edildi.





Həmin illərdə Azərbaycanın səsinə səs verənlər elə də çox deyildi - bəlkə də barmaqla sayılacaq qədər idi. Böyük - böyük dövlətlər Azərbaycana kömək etməmək üçün “qanunlarına düzəlişlər” uydurur, haqqımızı qəsb edənlə bizim hüquqlarımızı bərabərləşdirirdilər. Bu gün “insan haqqı”nı insandan önə çıxaranlar sadəcə azərbaycanlı olduğu üçün yaşamaq hüququndan məhrum edilmiş on minlərlə insanın tapdanmış HAQQINI xatırlamaq belə istəmirdilər. QHT-lər və ya dövlətlərin departamentləri bu işi özlərinin “prioriteti” saymırdı, elan etmirdi. O günlərdə, o illərdə Azərbaycanın haqqı, azərbaycanlıların hüququ yada düşmürdü. Avropası da, Qərbi də erməni lobbisinə xoş gəlmək üçün ən yaxşı halda susmağa üstünlük verirdi.

Ən böyük dərd isə işğal zamanı izsiz-soraqsız itən insanların - itkin insanların durumu idi. Minlərlə valideyn illərlə gözü qapıda, qulağı səsdə yaşamağa məhkum edilmişdi. Erməni işğalı həmin gənclərin yaşamaq hüququnu məhdudlaşdırmışdı, valideynlərinin isə atalıq, analıq haqqını qəsb etmişdi...

Beləcə 30 il ötdü. 30 ilin sonunda Azərbaycan özü öz haqqını, hüququnu tələb etdi və bərpa etdi. Torpaqlarını azad etdi, şəhərlərini, kəndlərini, qəsəbələrini, evlərini azad etdi. Ən əsası 30 il haqqı verilməmiş narahat ruhları azad etdi.

Bu səbəbdən idi ki, 44 günlük müharibə bütün dünyanın da etiraf etdiyi kimi haqq savaşı idi: az-az müharibə haqq savaşı adlanır. Qarabağ uğrunda savaşımız haqqın nahaqqa qarşı savaşı idi. Bu nahaqq isə tək Ermənistan deyildi - Azərbaycanın və azərbaycanlıların haqqını tanımayan hər kəs idi.

Bu savaşın sonunda itirdiklərimizi qazandıq: yüz minlərlə insan öz yurduna qədəm basdı. Amma ən əsası... Bu savaş illərlə öz torpağında “itkin” kimi ölən gənclərin ruhuna rahatlıq gətirdi...

4 ilə yaxındır ki, savaş bitib. 4 ilə yaxındır ki, Qarabağ torpağında qətlə yetirilən gənclərimizin qalıqları müəyyənləşdirilir, onların nəşləri torpağa qovuşur, ata-anaları rahatlıq tapır. Qarşısında yalnızca susulacaq bir mənzərədir - övladının nəşini görən valideyn Allaha şükr edir...

Son bir neçə gündə Gülalı Dadaşov, Vüqar Həsənov, Ayaz Ağayev, Elşad Qayımov torpağa tapşırıldı - düz 30 ildən sonra. Həmin anlara sakit baxmaq mümkün deyildi - valideynləri, yaxınları sanki bu oğullarını dünən və ya srağagün itirmiş kimi idilər. Bir gözləri ağlayırdı, bir gözləri isə təskinlik tapmışdı - yollardan yığılmışdı o gözlər...

...Ötən ilin sentyabrında Azərbaycan dövləti Qarabağdakı separatçı xuntanı darmadağın etdi - Qarabağda yaşayan ermənilərə təklif edilsə də, onlar Azərbaycanda qalıb yaşamaq istəmədilər. Öz seçimləri idi. Biz onların Ermənistana gedişinin təhlükəsizliyini təmin etdik. Onların könüllü şəkildə köçmək arzusuna hörmətlə yanaşdıq. Bəs görəsən, niyə həmin ermənilər üzərindən bizə qarşı oyunlar hazırlayan güclər, dövlətlər ölkəmizin haqqını və hüququnu tanımaq istəmirlər? Niyə hər dəfə bir bəhanə ilə Şuşaya getməkdən yayınmağa çalışan səfir xalqımızın bərpa edilmiş haqqını tanımaqdan boyun qaçırır? Niyə ABŞ-ın Ermənistandakı səfiri, Avropanın Ermənistandakı missionerləri, durbinə sarılıb ölkəmizi izləyənlər Azərbaycanın haqqından danışmır? Niyə ABŞ-ın Azərbaycandakı səfiri, Avropanın beynəlxalq statuslu təsisatlarının Bakıdakı təmsilçiləri 30 ildən sonra qalıqları tapılan və dəfn edilən şəhidlərin dəfn mərasimlərinə getmədilər, əsl həqiqətə yerindəcə şahidlik etmədilər? Bəlkə də Qərb təsəvvüründə belə bir şey görünməyən haldır - 30 ildən sonra insan özünün dəfn edilmək hüququna qovuşur - niyə dünyada “haqq davası” aparanlar bu gənclərin 30 ildir ki, pozulan haqqını müdafiə etmirlər?

Halbuki səfir Libbi qanun pozanların, pul qaçaqçılığı edənlərin, media adı altında siyasi məkrlərə nökərçilik edənlərin yaxınları ilə görüşməyə vaxt tapır. Həbsdən azad edilmiş Qubad İbadoğlu ilə görüşməyə vaxt tapan səfir Libbi niyə şəhid dəfninə vaxt tapmır? Əgər mövzu hüquq qorumaqdırsa, şəhid olduqlarından 30 il sonra torpağa tapşırılan həmin gənclərin haqqı daha çox qorunmalı deyilmi? Özünü “insan haqqının müdafiəçisi” elan edənlərin ikili standartdan çıxış etməsi buradan açıq görünmürmü? Axı, o səfir bu gün Qubadın yanında yox, şəhid anasının, şəhid atasının yanında olmalıdır, onları dinləməlidir, onların haqq səsini eşitməlidir. Hər işini “abzas”a salan səfir və onun kimiləri boğazdan yuxarı “insan haqqı” deyə-deyə insanı da, insanlığı da unudublar...

...Azərbaycan öz haqqını özü qoruyur. Azərbaycan pozulan hüququnu özü bərpa edir. Azərbaycanın Prezidenti Şuşadan bəyan edir: Burada söz sahibi bizik. Sözümüz isə haqqı, hüququ addım-addım izləyir. Azərbaycan bütün dünyaya haqq dərsi keçir, hüquq presedenti nümayiş etdirir. Bizim üçün ən böyük haqq məhz İNSANIN YAŞAMAQ, ÖZ TORPAĞINDA YAŞAMAQ HAQQIDIR...

***Pərviz SADAYOĞLU***

# Sənədsiz evlər: qeydiyyata alınsa da...

2024-cü ilin birinci rübündə üç ayı ərzində daşınmaz əmlak üzərində 88 mindən çox mülkiyyət hüququnun qeydiyyatı aparılıb. Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestrinin məlumatına görə, həmin dövr ərzində qeydiyyata alınan mülkiyyət hüquqlarının 21 min 664-ü Bakının, qalanı isə bölgələrin payına düşür. Bu, ölkədə mənzillərin mülkiyyət hüququna dair çıxarışların (şəhadətnamə) sayının artması deməkdir. Belə ki, yeni inşa edilən yaşayış binaları ilə yanaşı, fərdi evlərin də çıxarışlarla təmin edilməsində irəliləyişlər nəzərə çarpır.

Mövcud situasiya digər bir sualı meydan çıxarır, söhbət neçə illərdir ki, on minlərlə sənədsiz evin düyünə düşmüş çıxarış sənədləri ilə təmin edilməsindən gedir. Əmlak Məsələləri üzrə Dövlət Komitəsi bu məsələnin diqqətdə saxlanıldığını və sənədsiz evlərlə bağlı müvafiq araşdırmaların və dəqiqləşdirmələrin hələ də davam etdiyini bildirir. Belə ki, sovet dövründə və müstəqilliyin ilk illərində inşa edilmiş, ancaq çıxarış alınmasına icazə verilməyən evlərin taleyi illərdir ki, uzanmaqdadır. Əmlak Komitəsi bunu müvafiq icra hakimiyyəti orqanı və bələdiyyələrin təqdim etdiyi sənədlərin hüquqi müəyyənedici akt olmadığına görə, qəbul etmir. Müvafiq icra hakimiyyəti orqanlarının təqdim etdiyi əsaslı hüquqi sənədlər olmadığı üçün evlərə mülkiyyət hüququna dair çıxarışın verilməsi ləngiyir.

Hökumət sənədsiz ev probleminin başağrısına çevrilməsini nəzərə alaraq müvafiq orqanlara bu sahədə müəyyən yumşaldılmaların və güzəştlərin tətbiqini tövsiyə edib və bu çərçivədə həyət evləri ilə bağlı amnistiya işləri aparılması qərara alınıb. Sənədsiz evlərlə bağlı 2018-2019-cu illərdə bütün mənzil-kommunal təsərrüfatı birlikləri və bələdiyyələr tərəfindən uçot işi aparılıb və zəruri məlumatlar rayon icra hakimiyyətlərinə təqdim olunub. Bu, həmin evlərin sənədləşdirilməsi istiqamətində mərkəzləşdirilmiş şəkildə müvafiq dəqiqləşdirmələrin aparılması və uçot məlumatlarının toplanması baxımından mühüm addım hesab edilir. Bununla da ən yüksək dövlət orqanlarının birgə koordinasiyası sayəsində sənədsiz evlərin qeydiyyatının aparılmasına başlanlıb.

Həmin qiymətləndirmələrdən sonra Milli Məclisdə Şəhərsalma və Tikinti Məcəlləsinə dəyişikliklər edilib və yeni dəyişikliklər sənədsiz evlərin mülkiyyət hüququnun tanınması üçün bir sıra istisnalara imkan yaradır. Belə ki, 2023-cü il martın 1-dək inşa edilmiş, lakin etibarlılıq və təhlükəsizlik tələblərinə uyğunluğuna dair rəyi təqdim edən sahələrinin çıxarışla təmin edilməsi nəzərdə tutulur. Yəni, əvvəllər hansı ildə inşa edilməsindən asılı olmayaraq tikintisi sözügedən Məcəllənin tələblərinə uyğun aparılmayan amma etibarlılığı və təhlükəsizliyi olan bütün qeyri-yaşayış sahələrinin istismarına icazə veriləcək. İlkin qiymətləndirmələrə görə bu istisnalar 40 mindən çox evin mülkiyyət hüququnu almasına şərait yaradacaq.

Ancaq məsələ 40 minlə bitmir, daha ciddi problemlər var.

**Problem nədir?**

Qiymətləndirmələrə görə, hazırda ölkəmizdə 500 mindən artıq sənədsiz fərdi evlərin olduğu bildirilir ki, onların böyük əksəriyyəti kommunikasiya xətlərinin mühafizə zolağında inşa olunub, tikinti normativlərinin tələblərinə cavab vermir. Həmin evlərin yerləşdiyi ərazinin mühəndis-kommunikasiya zonalarının mürəkkəbliyi, elektrik xətlərinin altında, eləcə də qaz, su, kanalizasiya, digər kommunikasiya qurğularının üzərində yerləşməsi mülkiyyət sənədi ilə təmin edilməsinin qarşısını alır. Xüsusilə də Bakı və Bakıətrafı ərazilərdə sənədsiz evlərin yerləşdiyi ərazinin mürəkkəbliyini nəzərə alsaq, çıxış yolu da tapmaq mümkün olmur. Çünki həmin sahələrə nəzarət edən aidiyyatı qurumların böyük bir qismi evlərin ilkin mühəndis və layihə sənədlərini vermir. Bunun da əsas səbəblərindən biri həmin evlərin böyük bir qisminin sənədləşməsi üzrə vəziyyətinin qanunvericliyin tələblərinə uyğun gəlməməsidir. Çünki bu evlərin əksəriyyəti vaxtilə heç bir icra hakimiyyəti orqanından tikintiyə dair razılıq, müvafiq layihə və xəritə sənədləri almayıb və qanunsuz inşa edilib və özbaşına tikili hesab edilir. Bu isə Mülki Məcəllənin tələblərinin pozulması deməkdir.

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanununun 2.1-ci maddəsinə əsasən daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı Mülki Məcəllənin müvafiq maddələrinə əsasən, təmin edilir. Bu hüquqi sənəd daşınmaz əmlaka dair hüquqların əmələ gəlməsini, məhdudlaşdırılmasını (yüklülüyünü), başqasına keçməsini və bu hüquqlara xitam verilməsini tənzimləyən əsas qanundur. Mülki Məcəllənin 180-ci maddəsinə əsasən tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş yaşayış evi, digər tikili, qurğu və ya başqa daşınmaz əmlak özbaşına tikinti sayılır.



Qanuni tikinti dedikdə torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, yerli və şəhər icra hakimiyyətinin tikintiyə icazə verilməsi barədə qərarı, tikinti layihəsinin memarlıq-planlaşdırma sənədi, tikinti obyektinin istismarına icazə, Şəhərsalma və Tikinti Məcəlləsinin tələblərinə cavab verən tikinti planı və digər sənədlər nəzərdə tutulur. Bu sənədlər olduğu halda əmlakın reyestrdə qeydiyyatı və çıxarışın verilməsi mümkündür.

Sənədsiz evlərin sakinlərinin fikirlərindən bəlli olur ki, onların tələb edilən həmin sənədləri almaq üçün yerli icra hakimiyyəti orqanları və müvafiq dövlət qurumlarına müraciətinin əhəmiyyəti olmur. Səbəb isə həqiqətən də bu tikililərin ümumiyyətlə sıfırdan heç bir sənədinin olmamasıdır, onların böyük bir qisminin heç ünvanı yoxdur, bir qismi isə SOCAR-ın, neftçıxarma trestlərinin, digər dövlət orqanlarının ərazisində yerləşir ki, buranın mühəndis qurğuları və planı tikintinin tanınmasına yol vermir.

Kənd rayonlarında isə problem başqa cürdür, bir çox evlər kənd təsərrüfatı təyinatlı torpaqların üzərində inşa edilib. Torpaq Məcəlləsinə əsasən, kənd təsərrüfatı təyinatlı torpaqlarda inşaat işlərinin aparılmasına, yaşayış evlərinin tikilməsinə icazə verilmir və bu, qanunsuzluqdur. Ona görə də, onların mülkiyyət hüququnun tanınması özü qanunsuzluq olardı.

Bəzi şəxslər bələdiyyə sənədlərini əsas tutaraq məhkəmə yolu ilə torpaq üzərində tiklinin qanuniliyinə dair qərar alırlar ki, bu, bir sıra hallarda əmlak predmeti kimi reyestrdə məqbul hesab edilir və müxtəlif prosedurlar əsasında çıxarış alınması mümkün olur. Bu isə hər 100 müraciətdən birinin məhkəmə tərəfindən müsbət qərar alınması ilə nəticələnir. Çünki məhkəmə torpaq sahəsini müraciət edən vətəndaşın mülkiyyətində olmasını təsdiq edən sənədlərə əsaslanaraq özbaşına tikinti sayılan əmlakın yerləşdiyi torpaq və mülkiyyət hüququnu tanıyır. Əks halda bu, mümkün deyil.

Beləliklə, sənədsiz evlərin uçot və qeydiyyata alınması heç də onların hamısının xüsusi mülkiyyətə dair çıxarışın verilməsi demək deyil. Ölkədəki mövcud 500 mindən çox sənədsiz evin yarısından çoxu MM və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanun, digər qanunvericilik aktlarının tələblərinə cavab vermədiyindən əmlaka mülkiyyət hüququnun verilib-verilməməsi demək olduqca çətindir. Bu isə sənədsiz evlərin mülkiyyət hüququnun tanınmasına heç də yaşıl işıq yandırmır.

***ELBRUS***

# ABŞ şirkətlərinin Azərbaycandan "yaşıl enerji" istəyi

Azərbaycanın "yaşıl dünya naminə həmrəylik" platformasında əsas təşəbbüskar ölkə kimi fəaliyyətini artırması və COP29 iqlim konfransına ev sahibliyi etməklə ətraf mühitin qorunmasında məsuliyyətli addımlar atması ABŞ tərəfindən yüksək dəyərləndirilir. ABŞ şirkətlərinin Azərbaycanın bərpa olunan enerji sektoruna böyük marağı yaranıb. ABŞ-ın ölkəmizdəki səfiri Mark Libbi Azərbaycanın bərpa olunan enerjinin istehsalı və tədarükündə qəbul etdiyi qərarları və atdığı addımları müsbət dəyərlənidirb. Səfir qeyd edib ki, ABŞ-ın "yaşıl enerji" üzrə tanınmış şirkətləri və mütəxəssisləri BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etməkdə maraqlıdır.



ABŞ-ın ölkəmizdəki səfirinin fikrindən anlaşılır ki, Amerika bərpa olunan enerji layihələrinə xüsusi maraq göstərir və Azərbaycanda "yaşıl hidrogen" quruculuğnda fəal əməkdaşlığa can atır. Bu isə iki ölkə arasında ötən əsrin əvvəllərindən möhkəm təməli qoyulmuş enerji əməkdaşlığının yeni müstəviyə qədəm qoyduğunu və bu sahədə münasibətlərin yeni səhifəsinin açılması imkanlarının mövcudluğunu göstərir. Qeyd edək ki, Azərbaycanın 1994-cü ildə əsasını qoyduğu yeni enerji diplomatiyasını qətiyyətlə dəstəkləyən və Şərq-Qərb enerji dəhlizlərinin formalaşmasında mövqeyini hər zaman müsbət qiymətləndirən ölkələrdən biri Amerika olub. BTC, TANAP, TAP kəmərlərinə siyasi dəstək verən güc mərkəzlərdən biri kimi ABŞ bu layihələrin sülh və rifah, əsil enerji həmrəyliyi dəhlizləri olmasını bəyan edib. Azərbaycanın enerji siyasətini alqışlayıb.

Ona görə də, Azərbaycanın enerji siyasətinin yeni gündəliyi olan "yaşıl hidrogen" və təmiz ekoloji mühit platforması da ABŞ-ın məqsəd və məramaları ilə üst-üstə düşür. Həmçinin, Azərbaycanın yaşıl enerji üzrə nəql marşrutu da Şərq-Qərb xətti üzərində qurulub ki, bu da Vaşinqtonun dəstəklədiyi enerji konsepsiyasına uyğundur. Bütün bunlar onu göstərir ki, ABŞ-ın "yaşıl enerji" proqramlarında Azərbaycanla birgə əməkdaşlığı üçün fürsət və mühit formalaşıb.

Məlumdur ki, Azərbaycanın "yaşıl enerji" strategiyasında əsas potensial güc mənbəyi kimi azad edilmiş ərazilərin resursları xüsusi yer tutur. Bu ərazilər Yaşıl Enerji Zonası elan edilib, bölgədə bərpa olunan enerji mənbələrindən istifadə ilə bağlı xarici şirkətlərlə müxtəlif ssenarilər üzərində planlar işlənilir. Mövcud dəyərləndirmələr göstərir ki, Qarabağ və Şərqi-Zəngəzurda bərpa olunan enerji potensialına görə, digər bölgələrdən qat-qat zəngindir. Bu bölgə hidroenerji, külək və günəş enerjisi, termal suların mənbələrinə görə, ölkə üzrə resursların 30-40 faizinə malikdir. Həmin iqtisadi rayonlardan Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli günəş enerjisinə görə, ən əlverişli potensiala malikdir və enerji gücünün həcmləri 7200 MVt-dan artıq qiymətləndirilir. Artıq Azərbaycan hökuməti ilə BP şirkəti arasında əldə edilmiş razılığa əsasən, Zəngilan-Cəbrayıl zonasında 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisinə hazırlıq işləri görülür və iyul ayında "Şəfəq" layihəsi üzrə günəş elektrik stansiyasının tikinti işlərinə başlanacaq. Aİ-nin "Nobel Energy" şirkəti ilə imzalanmış sazişə əsasən, Cəbrayıl rayonunda 100 MVt gücündə günəş elektrik stansiyasının tikintisi və elektrik enerjisi istehsalı mərkəzi yaradılacaq. Laçın və Kəlbəcərin dağlıq ərazilərində həcmi 2000 Mvt proqnozlaşdırılan külək enerjisi stansiyası layihəsi reallaşmaqdadır.

Aİ şirkətlərinin, eləcə də digər xarici ölkələrin tanınmış enerji konsorsiumlarının azad edilmiş ərazilərdə "yaşıl enerji" layihələrində iştirakına dair razılaşmalar ABŞ şirkətlərinin də bu koalisiayay daxil olmasını şərtləndirir.

ABŞ şirkətlərinin Azərbaycanın azad edilmiş ərazilərində digər sahələrə investisiya qoyması üçün də imkanlar böyükdür. Hazırda bu ölkənin qeyri-hökumət təşkilatı Marşal Fondu Azərbaycanın ANAMA təşkilatına ərazilər minalardan təmizlənməsi işinə dəstək verir. Bu faktor da amerikalı şirkətlərin ərazilərin minalardan təmizlənməsindən sonra həmin torpaqlarda əsası qoyulan aqrar, aqrar-sənaye, enerji layihələrində təmsil olunmasına stimul verə bilər. Həmçinin, son aylarda Avropanın, Böyük Britaniyanın nüfuzlu şirkətləri azad edilmiş ərazilərdəki potensialı qiymətləndirərək burada icra edilən investisiya layihələrində iştirak üçün təkliflərlə çıxış etməkdədir. Xarici sərmayəçilərin artan bu marağı və Qarabağda intensiv xarakter alan işgüzarlıq, investisiya təşəbbüskarlıqları ABŞ şirkətlərinin də xarici tərəfdaşları ilə birgə eyni cərgədə yer almasında motivasiyaedici rol oynaya bilər. Üstəlik, bərpa olunan enerji sektoruna maraq göstərən Amerika şirkətlərinin bu sahə ilə birbaşa bağlı olan sənaye sahələrində də təmsil olunması imkanları böyükdür.

***ELBRUS***

# Saatlıq, yoxsa aylıq əməkhaqqı...
## Hansı daha sərfəlidir?

Məlum olduğu kimi Dünya Bankı (DB) neçə illərdir ki, dünya ölkələrində bizes mühiti və iqtisadi vəziyyətlə bağlı dərc etdiyi ənənəvi "Doung Business" hesabatını yeni illik qiymətləndirmə xülasəsi olan "Business Ready" ilə əvəz edib. Yeni hesabatdan irəli gələn tövsiyələrə uyğun olaraq Dünya Bankı Qrupu ilə Azərbaycan hökuməti 2 ildir ki, əməkdaşlıq edir və "Business Ready" hesabatının "İşçi qüvvəsi" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair Yol Xəritəsi hazırlanıb. Yol Xəritəsində məşğulluq, əmək bazarı, əməyin qiymətləndirilməsi üzrə bir sıra tədbirlərin görülməsinə dair təkliflər öz əksini tapıb ki, onlardan biri də minimum əməkhaqqının hesablanması qaydasının dəyişdirilməsidir. Belə ki, minimum əməkhaqqının strukturuna yenidən baxılması və əməyin qiymətləndirilməsi meyarının günlük deyil, saatlıq meyar üzrə hesablanması təklif olunur.



Qeyd edək ki, Azərbaycanda günlük iş saatı 8 saata bərabərdir və minimum əməkhaqqı üzrə maaşların hesablanması da həmin saat hesabı ilə tənzimlənir. Ölkəmizdə bir aylıq iş günü təxminən 22-23 günə bərabərdir ki, minimum əməkhaqqı üzrə bir günlük əməyin dəyəri 15-15,6 manat təşkil edir. Bir saata düşən minimum əməkhaqqı isə 1,8- 1,95 manatdır. Daha da sadələşdirsək, bir nəfərə düşən aylıq əmək saatı 178-184 saata bərabərdir.

Xatırladaq ki, minimum aylıq əməkhaqqı işçinin əməyinə görə ona ödənilən maaşın ən aşağı pilləsidir. Əməyin qiymətləndirilməsini təmin edən bu siyasətin əsas məzmunu işçilərin həyat şəraitini yüksəltməyə, yoxsulluq səviyyəsini azaltmağa və biznesin effektli olması yönündə stimul yaradılmasına xidmət edir. Azərbaycanda minimum əməkhaqqı müvafiq qanunvericiliyə əsasən, ixtisassız əməyə və xidmətə görə aylıq əməkhaqqının ən aşağı səviyyəsini müəyyən edən sosial normativdir. Ölkəmizdə hazırda minimum əməkhaqqını məbləği 345 manat təşkil edir. Son 20 ildə bu rəqəm təxminən 22 dəfə artırılıb.

Dünya Bankının təklifi əslində əməyin qiymətləndirilməsində səmərəliliyin təmin edilməsinə, konkret olaraq işlədiyi saatlar üzrə əməyin real qiymətləndirilməsinə xidmət edir.

**Minimum əməkhaqqının saatla hesablanması mexanizmi beynəlxalq praktikada**

Dünya praktikasında, ələlxüsus da Avropa ölkələrində minimum aylıq əməkhaqqı anlayışı yoxdur, bu ölkələrdə orta və median əməkhaqqı var. Minimum əməkhaqqı texniki olaraq işçilərin saatlıq əməkhaqqına görə gördükləri işin dəyərləndirilməsinə görə təyin olunan maddi dəyər kimi çıxış edir. Yəni, rəsmi ştat cədvəlində aylıq əməkhaqqı alan şəxslərlə yanaşı, günəmuzd, yəni günlük işlədiyi saatların dəyərinə uyğun maaş alan işçilər də mövcuddur. Dövlət idarələri, ictimai təşkilatlar, publik hüquqi şəxslər və digər müəssisələrdə, eləcə də müdafiə, hərbi təhlükəsizlik və s. sahələrdə standart aylıq maaş təyin edilir. Daha çox özəl və biznes sektorunda isə saatlıq əməkhaqqı üzrə hesablanan əmək normativləri mövcuddur. Bu əməkhaqqı üzrə əməyin dəyərini ölkənin sosial müdafiə orqanları, həmkarlar ittifaqları və işəgötürən qurumların birgə təklifi əsasında müəyyən edərək saatlıq iş hesablanır. Məsələn, Avropada bir saat əməyin dəyəri orta hesabla 20-35 avrodur. İşçi gün ərzində 8 saat, ayda 170 saat çalışdığı halda onun 3000-4500 avro civarında əməkhaqqı yaranır. İşçinin günün müxtəlif saatlarında iş rejimi 8 saat, digər günlərdə 4,5, 6 saat da ola bilər. Bu, işəgötürən və işçi ilə razılaşdırılmış əmək və ya mülki müqavilədə öz əksini tapır.

**DB-nin bu təklifi qəbul olunacağı halda ölkəmizdə əmək bazarında əməyin real dəyərinin qiymətləndirilməsində hansı dəyişiklik ola bilər?**

Əvvəla, Azərbaycanda minimum əməkhaqqı şərti xarakter daşıyır, əmək qanunvericliyinə əsasən, rəsmi əmək müqaviləsi əsasında çalışanlar üçün iş saatları 09.00-18.00 vaxt qrafiki üzrə, yəni 8 saatlıq iş rejiminə əsasən tənzimlənir. Ona görə də, rəsmi iş saatları əsasında çalışan və əməkhaqqı mimimum əməkhaqı üzrə hesablanan işçilər üçün bunun heç bir fərqi olmayacaq. Bu, özəl sektorda çalışan işçilər üçün fərq yarada bilər. Belə ki, bir çox özəl sahələrdə mülki müqavilə əsasında işləyən işçilər aylıq deyil, saat üzrə çalışırlar. Bu halda onların əməyinin dəyərində yox, sosial və əmək hüquqlarının qorunmasında təminatlar yaranmış olar.

Ümumiyyətlə, ölkəmizdə minimum əməkhaqqının strukturunda dəyişikliklərin aparılması deyil, əmək bazarında münasibətlərin təkmilləşdirilməsi daha əsas prioritetdir. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əməkhaqlarının artırılması və hamı üçün layiqli həyat səviyyəsinin təmin edilməsi, xüsusilə də işləyənlərin layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədilə minimum əməkhaqlarının artırılması, xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbətinin məqbul səviyyəsinə çatdırılması nəzərdə tutulur. Bu, faktiki olaraq minimum əməkhaqqı sisteminin təkmilləşdirilməsi və orta aylıq əməkhaqqına çatdırılmasına doğru addımların atılması deməkdir. Həmçinin, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində yüksək və ədalətli sosial təminat məsələsi başlıca meyarlardan biri kimi müəyyən edilib. Sosial təminat sisteminin daha effektiv və ədalətli olması üçün sosial müdafiə və sosial təminatın gücləndirilməsi, sosial ödənişlərin minimum məbləğlərinin layiqli səviyyəyə çatdırılması ilə bağlı tələblərin gerçəkləşməsi nəzərdə tutulur.

***E.CƏFƏRLİ***

# Litvada prezident seçkilərinin ikinci turu keçiriləcək



Litvada keçirilən prezident seçkilərinin birinci turunda qalib müəyyənləşməyib.

AZƏRTAC xəbər verir ki, namizədlərdən heç biri 50 faizlik həddi keçə bilməyib. Hazırki Prezident Qitanas Nauseda 46,08 % səs toplaya bilib. Digər ən çox seçici etimadı qazanan namizəd İnqrida Şimonitedir. O, seçicilərin 16,48 %-nin etimadını qazana bilib.

# BMT: Sudanda yenidən başlayan qarşıdurma nəticəsində 27 nəfər ölüb



Şimali Darfurun paytaxtı El Faşer şəhərində Sudan Silahlı Qüvvələri ilə Çevik Dəstək Qüvvələri arasında yenidən başlayan qarşıdurma nəticəsində azı 27 mülki şəxs həlak olub, 130-a yaxın insan yaralanıb. AZƏRTAC xəbər verir ki, bu barədə BMT-nin Humanitar Məsələlər üzrə Koordinasiya Ofisinin hesabatında bildirilib. Qarşıdurmalar səbəbindən təxminən 850 nəfərin müxtəlif yerlərə köçdüyü qeyd edilib.

Son məlumata görə, 2023-cü il aprelin 15-də başlayan münaqişə nəticəsində indiyədək 15 min 550 ölüm hadisəsi qeydə alınıb, köçkünlərin sayı isə 8,7 milyon nəfərə çatıb.

# Kataloniyada müstəqillik tərəfdarları seçkilərdə məğlub olublar

Mayın 12-də Kataloniyada keçirilən növbədənkənar parlament seçkilərində regionun müstəqilliyinin tərəfdarları tarixi məğlubiyyətə uğrayıblar. Onlar qanunverici orqanda mütləq çoxluğu itiriblər.

AZƏRTAC xəbər verir ki, seçkilərdə İspaniyanın Baş naziri Pedro Sançesin rəhbərlik etdiyi Sosialist partiyası qalib gəlib.

1980-ci ildən bəri ilk dəfə İspaniyanın bu regionunda müstəqillik tərəfdarı olan müxtəlif partiyalar birlikdə yerlərin mütləq əksəriyyətini qazana bilməyiblər.



Seçkilərdə aparıcı namizəd Salvador İllanın başçılıq etdiyi sosialistlər qalib gəlib. Onlar 42 yer qazanıblar və parlamentdə mütləq çoxluqdan uzaqdırlar. Bununla belə, İlla digər sol partiyaların dəstəyi ilə hökumət başçısı seçilə və bununla da yeni seçkilərin qarşısını ala bilər, çünki hazırda sol hökumətə alternativ yoxdur.

Bülletenlərin demək olar ki, 100 faizi hesablandıqdan sonra çıxış edən Salvador İlla deyib: "Bu gün Kataloniyada katalonları birləşdirərək onlara xidmət etmək üçün yeni mərhələ başlayır".

Müşahidəçilərin fikrincə, İspaniya iqtisadiyyatının və sənayesinin lokomotivlərindən biri olan 8 milyonluq bu regionda separatçı əhvali-ruhiyyədə açıq-aşkar azalma müşahidə olunur.

Analitiklər seçkilərin nəticələrini baş nazir Pedro Sançesin Madriddəki solçu mərkəzi hökumətinin böyük zəfəri kimi qiymətləndiriblər. İspaniya hökumətinin başçısı barışıq və güzəşt siyasəti ilə Kataloniyadakı münaqişəni böyük ölçüdə azaldıb və regionun müstəqillik tərəfdarlarının səylərini tamamilə yox edib.

# Saz- söz sənətkarı - Aşıq İdris



Şairlər yurdu olan Göyçə mahalı Azərbaycan ədəbiyyatına, incəsənətinə görkəmli şəxsiyyətlər bəxş edib. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan aşıq sənətinin ən yüksək zirvəyə çatmasında Göyçə aşıq məktəbinin əvəzsiz rolu var. Bu məktəbin yetirmələrindən biri də el sənətkarı Məhərrəmov İdris Şirin oğlu idi. O, könüllü olaraq II dünya müharibəsinə getdi və geri qayıtmadı. İslam Ələsgərin "Sazlı-sözlü Göyçə" kitabında II dünya müharibəsindən doğma yurda dönə bilməyən saz-söz sənətkarları haqqında yazır: “”Böyük Vətən müharibəsi” adlandırılan 1941-1945-ci il müharibəsi zamanı cəbhəyə yollanan Göyçə oğulları, öz canları, qanları bahasına Vətəni düşməndən təmizləməkdə fəal iştirak elədilər. Onların bir çoxu həlak oldu, doğma yurda qayıda bilmədi, öz əllərilə divardan asdıqları saz müharibədən sonra da uzun müddət sahibinin yolunu gözlədi”.

Divardan asılan sazın uzun müddət yolunu gözləyən vətən oğullarından biri də Məhərrəmov İdris Şirin oğlu idi. O, 1894-cü ildə Göyçə mahalının Zərkənd kəndində sənətkar ailəsində anadan olmuş, ilk ustad dərsini 12 yaşında ikən atası Aşıq Şirindən almışdı. Aşıq Ələsgərdən, Aşıq Musadan saz-söz sənətinin incəliklərini öyrənmişdi. Səksəndən artıq saz havasına bacarıqla yiyələnib, otuz beş dastanı hər dəfə yeni əlavələrlə danışırmış. Ailə arxivimizdə qorunub saxlanan Azərbaycan, rus, erməni dilində 1938- 1941-ci illəri əhatə edən arayışların verdiyi məlumata görə Aşıq İdris İkinci Dünya müharibəsinə gedənə qədər Basarkeçər rayonunun Aşıqlar Birliyinin sədri, Aşıqların I (5 may 1928-ci il) və II (12 mart 1938-ci il) qurultaylarının nümayəndəsi və Əməkdar incəsənət xadimi olub. 1942-ci ildə könüllü olaraq İkinci Dünya müharibəsinə gedib (baxmayaraq ki, bir neçə dəfə hərbi komissarlıq tərəfindən geri qaytarılıb) və müharibədən qara kağızı gəlib.

Bu günlərdə Lütfiyar Nəsibovun " Göyçə mahalı II Dünya savaşında" adlı kitabı ilə tanış oldum. Lütfiyar Nəsibov Zərzəbil (Zərkənd) sakinlərindən müharibəyə gedənlər haqqında yazır: " İkinci Dünya müharibəsində Zərkənd sakinlərindən 57 nəfər döyüşlərdə həlak olmuş və ya itkin düşmüşdür. Onların siyahısı və hər biri haqda qısa məlumat təqdim olunur: ... Məhərrəmov İdris Şirin oğlu (1905, Zərkənd) 28 avqust 1942-ci ildə səfərbər edilmişdir. Basarkeçər RHK-nın 65618 saylı, 14 dekabr 1949-cu il tarixli,1 inv.883 saylı, tarixsiz, müharibədən sonrakı dövrün məlumatında 1943-cü ilin fevralında itkin düşdüyü göstərilir. Arxiv fondlarında araşdırmalar zamanı aşkar edilmiş digər sənəddə: 107-ci atıcı birqada İdarəsinin 11698 saylı, 26 mart 1943-cü il tarixli qaytarılmaz itkilər haqqında məlumatında 18 fevral 1943-cü ildə döyüşdə həlak olduğu və Krasnodar diyarı Novorossiysk şəhəri Misxako qəsəbəsində dəfn olunduğu göstərilir (ş. 539)". Bu məlumat məni çox sevindirdi, çünki illərdi babam haqqında axtarış aparıram, babamın dəqiq neçənci ildə anadan olduğunu və nə vaxt, harada həlak olduğunu tapa bilmirdim.

Lütfiyar Nəsibovun " Göyçə mahalı II Dünya savaşında" adlı kitabı babam haqqında bilmədiklərimizi üzə çıxardı. Əvvəllər əldə etdiyimiz məlumatlarda babam Məhərrəmov İdris Şirin oğlunun doğum tarixi 1894 və 1903-cü illər kimi verilmişdir. Lütfiyar Nəsibovun "Göyçə mahalı II Dünya savaşında" kitabından babam Aşıq İdrisin doğum və vəfat tarixini tam dəqiqliyi ilə müəyyənləşdirmiş oldum. Deməli Məhərrəmov İdris Şirin oğlu 1905-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Zərkənd kəndində anadan olub, 1943-cü ildə, 38 yaşında müharibədə qəhrəmancasına vəfat edib və Krasnodar diyarı Novorossiysk şəhəri, Misxako qəsəbəsində dəfn olunub.

Lütfiyar Nəsibovun "Göyçə mahalı II Dünya savaşında" kitabı çətin, uzun, ağır bir zəhmətin bəhrəsidir. O, tədqiqatı zamanı nə qədər hərbi arxiv sənədlərindən istifadə etdiyi kitabda tam öz əksini tapıb. Lütfiyar müəllimə bu dəyərli kitabı ərsəyə gətirdiyi üçün, II Dünya müharibəsində Göyçə mahalında əzizlərini itirənlər adından təşəkkür edirəm.

***Rübabə Şirinova,***
***AMEA Əlyazmalar İnstitutu***
***fəlsəfə üzrə fəlsəfə doktoru,***
***dosent***

# Baş ağrısı, soyuqdəymə, öskürək...

## Yazda xəstəliklərdən qorunmaq üçün nə etməli?

Adətən yaz aylarında xəstə olan birini görəndə şübhəsiz ağlımızdan ilk bu sual keçir: "Belə aylarda necə xəstə olmaq olar?" Çox təəssüf ki, yaz aylarında da immuntetin aşağı düşməsi və bəzi xəstəliklərin yayılması mümkündür.

Son günlər ölkəmizdə qeyri-sabit hava şəraiti müşahidə olunur. May ayında bu cür hava insanların narahatlığına səbəb olub. Belə ki, havanın yağışlı və küləkli olması may ayı olmasına baxmayaraq insanlar arasında qrip, soyuqdəymə kimi xəstəliklərin yayılmasına şərait yaradıb. Əhalinin digər qism xəstəlikdən sonra davamlı olaraq öskürdüklərini bildirirlər. Səhhətində narahatlıq yaranan insanların başqa bir qismi isə son günlər kəskin baş ağrılarından şikayətlənirlər.

**İnsanları yanıldan hava...**

Mövzu barədə "Yeni Azərbaycan"a danışan həkim-terapevt Şəmsiyyə Namazlı xüsusilə yaz aylarında insanların səhhəti ilə bağlı daha çox problem yaşadığını bildirib. Həkimin sözlərinə görə, aprel ayından etibarən havaların kəskin isti keçməsinə şahid olduq, lakin bu cür hava şəraiti normal hesab olunmur: "Son zamanlarkı hava şəraiti insanların bir növ aldanmasına səbəb olur. Aprel ayından havalar isti olsa da, insanların böyük qismi baş



ağrıları, burun axması və müxtəlif virus infeksiyalarına yoluxduqlarını bildirirdilər. Apreldə kəskin isti hava hətta insanlarda şiddətli baş ağrılarına da səbəb olmuşdu. Çünki pasiyentlər daha çox bununla bağlı müraciət edirdilər. İndi isə may ayıdır və bu ay başlayandan bəri yağışlı, küləkli və soyuq hava hökm sürdü. Havanın birdən-birə bu qədər dəyişkən olması təbii ki, insanların səhhətinə xoş təsir göstərmir. Məsələn, hazırda küçəyə çıxan insanların çoxusu qalın geyinir. Lakin gün ərzində havanın birdən-birə mülayimləşməsi də baş verir. Bu zaman insanların xəstələnmə riski daha yüksəkdir. Xüsusilə, metro və avtobusdan istifadə edən əhalinin sıxlıq içərisində qalaraq tərləməsi və daha sonra yenidən açıq-küləkli havada olması soyuqdəyməyə səbəb olur. Ona görə də insanların evdən çıxarkən nə çox qalın, nə də çox nazik geyinməməsi məsləhətdir".

**Fərqli növ mikroblar...**

Ş.Namazlı qeyd edib ki, yazda virus infeksiyasına yoluxmaq qışa nisbətən 25 faiz daha asandır, lakin yadda saxlamaq lazımdır ki, yaz virusları adi simptomları ilə yanaşı, qarın ağrısına da səbəb ola bilən fərqli növ mikroblardan qaynaqlanır: "Belə insanlarda əsasən ürəkbulanma və baş gicəllənməsi kimi narahatlıqlar olur. Bu viruslara daha az həssas olmaq üçün bədən tərbiyəsi ilə fəal məşğul olmaq məsləhətdir

Yazda şiddətli qızartı və səpgi ilə xarakterizə olunan dəri iltihabı daha da kəskinləşə bilər. Bundan başqa, ətraf mühitin temperaturu nə qədər yüksək olarsa, böyrək daşlarının əmələ gəlmə ehtimalı da bir o qədər yüksəkdir. Bu, yazda orqanizmimizin nəmini daha tez itirməsi, böyrəklərin isə daha çox stress keçirməsi ilə bağlıdır. Buna görə də, yazda çoxlu maye qəbul etmək və susuzluq əlamətlərini müşahidə etdikdə vaxtında tədbir görmək çox vacibdir".

**Bronxit xəstələrinin nəzərinə...**

Həkim qeyd edib ki, aprel-may ayları bronxit xəstəliyi olan insanlar üçün çətin keçə bilər: "Çünki bu aylarda da qrip infeksiyası, həmçinin yuxarı tənəffüs yolu infeksiyalarına yoluxma çox olur. Üst tənəffüs yolu infeksiyaları isə xüsusilə bronxit xəstələrinin davamlı öskürməsinə səbəb olur. Belə hallar uzana bilər, lakin adətən öz-özünə də keçir. Lakin dərman preparatlarından əlavə təbii bal öskürək üçün ən yaxşı təbii qida mənbəyidir. Cökə və adaçayı kimi bitki çaylarından da istifadə edilə bilər".

***Yeganə BAYRAMOVA***

# Hökumət-kilsə qarşıdurması

## Ermənistanda vətəndaş müharibəsinə səbəb olacaqmı?

Son günlər Ermənistanda daxili siyasi vəziyyət xeyli gərginləşib. Buna səbəb aprelin 19-da Azərbaycanla Ermənistanın Qazax rayonu istiqamətdə sərhədlərin müəyyənləşməsi və 4 kəndin geri qaytarılması ilə bağlı razılığın əldə olunmasıdır. Ermənistanda etiraz aksiyalarına Tavuş bölgəsinin arxiyepiskopu Baqrat Qalstanyan başçılıq edir. Qeyd edək ki, mayın 4-də Qalstanyan bütün ermənilərin katolikosu II Qareginin xeyir-duası ilə Tavuş vilayətindən İrəvana doğru yürüşə başlayıb. Mayın 9-dan etibarən Ermənistan paytaxtında etiraz aksiyalarına start verib. Erməni kilsəsinin nümayəndələri də ölkənin müxtəlif bölgələrindən yürüşə qoşulub. Onlar da Azərbaycanın işğal olunmuş dörd kəndinin qaytarılmasını nəzərdə tutan sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə etiraz edirlər.

Etirazçılar baş nazir Nikol Paşinyanın istefasını tələb edirlər. Ermənistan polisi ötən gün səhər saatlarında İrəvanda Nikol Paşinyanın istefası tələbi ilə keçirilən vətəndaş itaətsizliyi aksiyalarının iştirakçılarını saxlamağa başlayıb. Ermənistan Daxili İşlər Nazirliyinin məlumatına görə, aksiyalarda iştirak edən 88 nəfər saxlanılıb.

Dünən, həmçinin müxalifət tərəfdarları arxiyepiskop Baqratın çağırışı ilə İrəvanın küçələrini bağlamağa başlayıb. Aksiyaların davam etdiyi əraziyə əlavə polis qüvvələri cəlb olunub. Ermənistan mediası və ekspertlər hərəkatın lideri arxiyepiskop Baqratı xaricdən aldığı pul müqabilində ölkədə vəziyyəti qarışdırmaqda günahlandırırlar.

Bir sıra ekspertlər hesab edir ki, Ermənistanda hökumət-kilsə qarşıdurması vətəndaş müharibəsinə çevrilə bilər. Nikol Paşinyan da etiraf edib ki, bütün ermənilərin katolikosu II Qaregin siyasi hərəkata rəhbərlik edir, hərəkatın benefisiarı isə Robert Köçəryandır: "Erməni keşiş Baqrat Qalstanyanın rəhbərlik etdiyi "Vətən naminə Tavuş" hərəkatının məqsədi onun sələflərini hakimiyyətə qaytarmaqdır. Hələ 2021-ci ildə Robert Köçəryan kilsənin köməyi ilə hakimiyyətin dəyişməsi ssenarisini təqdim edib". Keşiş Baqratın mitinqin gedişi zamanı bir müddət "yoxa çıxması" və onun Köçəryanla görüşə getdiyi barədə məlumatların yayılması bu ehtimalları artırır.

Nəzərə alaq ki, Qalstanyan da çıxışlarının birində II Qareginin xeyir-duası ilə dindarların etiraz aksiyasına qoşulduğunu bildirmişdi. Hadisələr göstərir ki, erməni din xadimləri baş nazir Nikol Paşinyanın sərhədlərin delimitasiyasına dair razılıqdan imtinaya məcbur etmək üçün aktivləşib. Bu yaxınlarda bütün ermənilərin katolikosu II Qaregin və Böyük Kilikiya Evinin katolikosu I Aram arasında telefon danışığının baş tutması da təsadüfi hesab edilə bilməz. Katalikoslar Ermənistandakı vəziyyəti, o cümlədən sərhədlərin müəyyənləşməsi ilə bağlı razılığı müzakirə ediblər. Bu fakt II Qaragenin təxribatların başında dayandığını təsdiqləyir. Hətta Paşinyanı devirdikdən sonra keşiş Baqratın baş nazir vəzifəsinə gətirilməsi planlarının olduğu da bildirilir. Ermənistanın keçmiş xarici işlər naziri, Robert Köçəryanın yaxın adamı Vardan Oskanyan da belə bir təkliflə çıxış edib. Onun fikrincə, Ermənistanda hakimiyyət dəyişikliyi baş verərsə, keçid dövrü üçün baş nazir postuna ən uyğun namizəd məhz Baqrat Qalstanyan ola bilər. Yəni, "erməni diplomat" məhz hazırda kütləvi etiraz dalğasına liderlik edən keşişi Ermənistanın baş naziri kimi görür. Ermənistanda kilsənin siyasətə qarşımasını dəstəkləyənlər də var. Məsələn, müxalifətyönlü politoloq, "Alternativ layihələr" qrupunun üzvü Vahe Ovannisyanın fikrincə, Ermənistanın hazırkı hakimiyyəti orduya, kilsəyə, diaspora və 1991-2018-ci illərdə müstəqillik tarixinə qarşı müharibə aparır: "Bu nifrət uzun müddət davam etdi, ona görə də itkilər çox böyük oldu. Artıq dayanmaq vaxtı çatıb. Nikol Paşinyan soruşur ki, kilsə niyə siyasi proseslərə müdaxilə edir? Cavab vermək lazımdır: Dövlət olmadıqda və ya dövlət öz ən mühüm vəzifələrini təmin etmədikdə kilsə siyasətə müdaxilə edir".



Məsələ ondadır ki, etiraz aksiyasına rəhbərlik edən keşiş Baqrata erməni cəmiyyətində münasibət birmənalı deyil və onun əməllərini pisləyənlərin sayı kifayət qədər çoxdur. Erməni sosial mediasında keşişi "xarici agent", "rüşvətxor" adlandıran xeyli insan var. Ermənistan parlamentinin hakim "Mülki müqavilə" partiyasından olan deputatı Arsen Torosyan isə ölkədəki xristian kilsəsinin tarixini əfsanə hesab edir. O, kilsəni erməni dövlətçiliyini məhv etməkdə də ittiham edib: "Xalqımız çox ağır tale yaşadı. Xalq bu fırtınalı dənizdə gəzmək üçün mif və stereotipləri məhv etməlidir. Dövlətçilik yaratmaqla qismən uğur qazansa da, 1700 illik mifi tamamilə məhv etməlidir". Paşinyan tərəfdarı hesab edir ki, kilsə öz daxili və xarici qrup maraqları naminə Ermənistanın dövlətçiliyini qurban vermək istəyir və xalq bu struktura yekun qiymət verməlidir.

Beləliklə, görünən odur ki, R.Köçəryan və digər müxaliflər erməni xalqı arasında nüfuzunun olmadığı üçün kilsəni irəli verərək hakimiyyətə qarşı yönəldib. Onlar Paşinyanı bu yolla devirə biləcəklərinə ümid edirlər. Hadisələr onu da aşkara çıxardı ki, erməni keşişləri xarici dairələrin təlimatları əsasında qaranlıq layihələr həyata keçirirlər. Belə planlar isə kövrək olan sabitliyə təhdid olmaqla yanaşı, növbəti silahlı toqquşmalara zəmin yaradır. Xarici qüvvələrin erməni kilsəsindən kart kimi istifadə etməsi vəziyyəti daxili silahlı qarşıdurmaya gətirib çıxara bilər. Paşinyan hökuməti hələ ki, vəziyyətə nəzarət edə bilir. Lakin hakimiyyət xarici qüvvələrin müxalifət və kilsə ilə birlikdə cızdığı ssenariləri poza bilməsə, Ermənistanda vətəndaş müharibəsi qaçılmaz olacaq.

***Nardar BAYRAMLI***

# Kişi əmrinə möhtac kişi düşməni

## Avqust Strindberqin "Fröken Jüli" pyesi haqqında

İntibah dövrü dramaturgiyasının zirvəsi Vilyam Şekspir deyirdi ki, dünya bir teatr səhnəsidir, biz də o teatrın aktyorlarıyıq. Avropada "yeni dramın" banisi Henrik İbsen bir az da irəli gedib həyatı kukla teatrına, insanları da fələyin oynatdığı kuklalara bənzətdi. Naturalist teatrın flaqmanı, İsveç ədəbiyyatının bir nömrəli fiquru, dünya şöhrətli yazıçı, dramaturq Avqust Strindberq isə insanı ana təbiətin yoxluq, heçlik qəfəsindən açıb həyat adlı cəngəlliyə buraxdığı vəhşi heyvan qismində qələmə verməklə daha radikal mövqe tutdu.

Onun başlıca rəqibi, hədəfi İbsen idi. Böyük norveçlinin nüfuzu, şöhrəti böyük isveçlinin əl-ayağına dolaşırdı. Əsərlərində özündən iyirmi bir il əvvəl dünyaya gəlmiş İbsenin qaldırdığı problemlərin, xüsusən də qadın azadlığı məsələsinin üstünə getməklə Strindberq sələfiylə amansız polemikaya girişir, sanki İbsenlə mübarizəyə gecikdiyi illəri kompensasiya eləməyə, kor bəxtini cərimələməyə çalışırdı. Görünür, onun İbsenə dözümsüz yanaşmasının bir səbəbi də isveçlinin özünü norveçlidən üstün tutmasıyla bağlıdır.

İbsen özü də gənc həmkarının təşkil elədiyi "yarışa" həvəslə qoşulmuşdu, Strindberqin yağlı boya ilə çəkilmiş portretini gözünün qabağından asmışdı, üstəlik, İsveç dramaturqunun çılğın parlaq gözlərinin nəzəri üstündə olmayanda işləyə bilmədiyini deyirdi...

***

1888-ci ildə qələmə aldığı "Fröken Jüli" əsəri Strindberqin onlarla pyesi arasında ən məşhurudur. O illərdə bu dram əsərini nə çap eləməyə, nə də tamaşaya qoymağa kimsənin cəsarəti çatmamışdı.

İbsenin fədakar Norasından fərqli olaraq Strindberqin ərköyün mademuazel Jülisi kişi düşmənçiliyi ruhunda böyüyüb, sadə ailədən çıxmış, qraf atasına istəmədən təslim olmuş mərhum anası ona əks cinsə qarşı bolluca nifrət aşılayıb. Jüli ömrü boyu heç bir kişinin kölesi olmayacağına and içib. Əgər "Oyuncaq ev" pyesini feminizmin tərənnümü sayırıqsa, "Fröken Jüli" pyesini feminizmə qarşı yazılmış əsər kimi də qavraya bilərik.

Əhvalat bir dini bayram axşamı Jülinin atasının kənddəki malikanəsində vaqe olur. Əsərdə üç personaj var: iyirmi beş yaşlı zadəgan qızı Jüli, otuz yaşlı lakey Jan, bir də otuz beş yaşlı qulluqçu Kristina.

Lakey mətbəxdə biş-düşlə məşğul olan qulluqçuya yaxınlaşıb deyir ki, fröken Jüli bu axşam özünü çox qəribə aparır. Kristina xanımın qəribəliklərini nişanının pozulmasına bağlayır. Jan onun diaqnozunun təsdiqi kimi xanımın öz nişanlısını qamçı üstündən hoppanmağa məcbur elədiyini, ardınca da həmin qamçıyla oğlanı döydüyünü gözüylə gördüyünü söyləyir. Ondan sonra Jülinin nişanlısı qaçıb aradan çıxıb.

Jan Kristinanın adaxlısıdır, yaxın zamanda onlar evlənəcəklər. Lakey şam yeməyinə əyləşib qulluqçuyla şirin söhbətə başlayanda fröken Jüli mətbəxə girib Janla məzələnir, sonra onu dartıb bayırda bayram keçirən izdihamın arasına aparır, lakeylə yorulanacan oynayır. Bir müddət sonra mətbəxə qayıdan Jan Kristinaya deyir ki, xanım lap dəli kimi rəqs eləyirdi. Kristina bunun qadınlıq halıyla bağlı olduğunu, mademuazelin ayda bir dəfə belə qəribə hallara düşdüyünü söyləyir. Üstəlik, qraf qızının xasiyyəti də qəribəliklərlə doludur.

***

Jan Kristinanı qucaqlayanda Jüli mətbəxə girir. Lakeyin çalıb-oynayan dəstədən tez ayrılması xanımın xətrinə dəyib. Fröken Jüli ona atasının libasını geyinmək göstərişi verir. Ağasının qiyafəsi Jana çox yaraşır. Söhbət əsnasında mademuazel öyrənir ki, Jan fransızca başda olmaqla bir neçə dil bilir, dəfələrlə teatr tamaşalarında olub, bahalı restoranlarda, otellərdə ofisiant, xidmətçi kimi çalışıb.

Kristina oturduğu kresloda yuxuya gedir, xanımla lakey pivə içə-içə söhbətləşirlər. Fröken Jüli Janı çəkmələrini öpməyə məcbur eləyir. Lakey mətbəxdə baş verənləri kiminsə görəcəyindən ehtiyatlanır. Qraf haradasa səfərdədir, sabah səhər qayıdacaq. Nökərlərin, qulluqçuların başı bayram kef-damağına qarışıb.

Kristina ayılıb öz otağına çəkilir. Xanım lakeyi bağçaya dartır. İkilikdə fröken Jüli Jana deyir ki, yuxularında tez-tez özünü hündür bir dirəyin başında görür, ha çalışsa da, oradan aşağı enə bilmir. Lakey isə deyir, əksinə, o da yuxuda özünü uca bir ağacın altında uzanmış görür, həmin ağacın başındakı quş yuvasında qızıl yumurtalar var, ancaq Janın əli o yumurtalara çatmır.

Lakeyin gözünə düşmüş çöpü çıxarmaq adıyla xanım ona çox yaxınlaşır. Jan xanımı xəbərdar eləyir ki, kişi xeylağına bu qədər yaxınlıq vermək odla oynamaq deməkdir. Jüli onun sözünə məhəl qoymayıb bir az da sıx təmasa girir, Jan onu öpmək istəyəndə isə lakeyə şillə vurur.

Alçaldılmış Jan küsüb içinə çəkilir. Bu vaxt onun uşaqlıq xatirələri oyanır, ata-anası, yeddi bacı-qardaşıyla bir uçuq daxmada böyüdüyü yadına düşür, üstəlik, tək donuzlarını da gecələr həmin daxmaya qatırmışlar. O daxmanın pəncərəsindən ağalıq evi cənnətin özü kimi görünürmüş, ancaq kasıb uşaqlarının üzünə o cənnətin qapıları daim bağlı olurmuş. Bir gün necəsə Jan ağanın həyətinə girə bilir, orada fröken Jülini aralıdan görüb bir könüldən min könülə kiçik xanıma aşiq olur. Uşaq olsa da, anlayır ki, yuxarı silkin qızına onun əli heç vaxt çatmayacaq, ümidsizlikdən özünə qəsd eləməyə cəhd göstərir.

Lakeyin etirafları onun aldığı dərin mənəvi yaralardan, ağır zədələrdən xəbər verir. Bu yaralar uzun illərdən bəri irin bağlayıb, onun qanını zəhərləyib. Fröken Jülinin romantik həvəsi bir az da coşur, lakeyə göldə qayıqla gecə gəzintisinə çıxmağı təklif eləyir. Bu vaxt bayram coşqusundan başını itirmiş nökər-qaravaş dəstəylə mətbəxə sarı yönəlir. Xanımla lakeyin Janın yataq otağında daldalanmaqdan savayı çarəsi qalmır.

***

Dəstə mətbəxdə yeyib-içəndən, çalıb-oxuyub oynayandan sonra yenə bayıra çıxır. Xanımla lakey səhnədə yenidən görünürlər. Davranışlarından, danışıqlarından hiss olunur ki, onların arasında nəsə baş verib. Fröken Jüli Janın ona "sən" deyə müraciət eləməsini istəyir, lakey isə deyir, neçə ki bu evdədirlər, onu bacarmayacaq.

İki daşın arasında onlar plan da qurublar: Jüli atasının yuxarı mərtəbədəki kabinetindən lazım olduğu qədər pul oğurlayacaq, sevgililər Kristinanı da götürüb səhər obaşdan qatar ayağına qaçacaqlar, İsveçrəyə gedib cənnət bir guşədə otel açacaqlar, baş-başa verib arxayın, şad-xürrəm dolanacaqlar.

Fəqət heç bir mənəvi-əxlaqi dayağa söykənməyən, cinayət üstündə bünövrə tutan, sevgidən məhrum birlik xoşbəxtliyə zəmanət verə bilməz. Bayaqdan hökm də, üstünlük də fröken Jülinin əlindəydisə, artıq estafet lakeyə keçib. İndi xanımın şərəfi də, ləyaqəti də, namusu da öz nökərinin ovcunun içindədir. Jüli əvvəlki kimi sərt, hökmlü davranmaq istəsə də, Jan onun üstünə ayaq alır.

Hərdən elə görünür ki, xanım lakeyi sadistik yox, mazoxistik bir ehtirasın təhrikiylə söyüb alçaldır, çünki artıq Jan onun təhqirlərinə birə-beş qat cavab verir, onu pozğun, əxlaqsız, fahişə adlandırır. Lakey öz xanımına deyir ki, onun bəyənmədiyi aşağı silkdən olan heç bir qız belə davranışı özünə rəva bilməzdi. Jüli anlayır ki, Jan haqlıdır, ona təslim olmaqla çöx böyük səhvə yol verib.

Beləliklə, kişi düşmənçiliyi ruhunda böyüdülən qız içini qaratikan basmış, yediyi qaba tüpürən, kişilik adına cinsiyyətindən başqa bir şeyi olmayan iyrənc məxluqun girovuna çevrilir. Yanlış tərbiyənin paradoksallığı budur. Təbiət sözünü deyib, fröken Jülinin kişi zəhmi altında əzilməyə, kişi şilləsi yeməyə, kişi tərəfindən buyurulmağa ehtiyacı yaranıb. Fəqət qız bu səlahiyyətləri sevgiylə qazana bilmir, o səbəbdən özünü də, qarşısındakını da alçaldır. Xain lakey onun ömrünün, qəlbinin şərikinə yox, cinayət ortağına çevrilir.

**davamı növbəti sayımızda**



***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Bizi dünyaya tanıdan ...

## "Xarıbülbül" festivalı necə yarandı?

Dillərə dastan olan Xarı bülbül gülü Şuşanın rəmzi, təbiətin möcüzəsi hesab edilir. Sanki Xarı bülbül gülün üzərinə qonmuş bülbülü xatırladır. Bülbülün bağrının altındakı gül al-qırmızı rəngə boyanıb. Tarix boyu Qarabağa qonaq gələnlər hər zaman Xarı bülbülü seyrə çıxıb. Qarabağda bu gülün şöhrəti o qədər səs salıb ki, hətta onun şəninə konsertlər verilib, festivalar təşkil edilib. Həmin konsertləri ölkəmizin böyük sənətkarları öz ifaları ilə bəzəyiblər. Çıxışlar arasında Azərbaycanın Xalq artisti Qədir Rüstəmovun ifa etdiyi, Azərbaycan musiqisinin "Qızıl Fond"una daxil olan "Sona bülbüllər" mahnısı xüsisi yer alıb.

**Festivalın tarixçəsi...**

"Xarıbülbül" beynəlxalq musiqi festivalı xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb. Festival hər il may ayında Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan kimi ölkələrin və SSRİ respublikalarının iştirakı ilə keçirilib. Lakin o zamanlar Qarabağ münaqişəsinin başlaması və Şuşa şəhərinin işğal olunması ilə festivalın 29 il keçirilməsi mümkün olmayıb.

Qarabağ münaqişəsi başlayandan Xarıbülbül Azərbaycan xalqının mübarizə rəmzinə çevrilib. Qarabağ ərazisi işğal olunduqdan sonra isə Xarıbülbül bir çoxları üçün nisgil, kədər, ağrı, həsrət simvolu olub. Mədəniyyətdə, incəsənətdə və ədəbiyyatda Xarıbülbül ifadəsi işləndikdə həmişə söhbətin Qarabağdan getdiyi aydın olurdu.

Festivalın may ayında baş tutmasına səbəb isə bu ayda Xarıbülbülün çiçəklənmə dövrü hesab edilməsidir. Konsertlər Cıdır düzü meydançasında tikilmiş 7 məkanda keçirilmişdi. Festival 12-15 yaşlarında "Qarabağ şikəstəsi" muğamını ifa edən gənc xanəndələrin ifası ilə açılmışdı. Festivalın ilk günü Qarabağ atlarının da yarışları olmuşdu. İlk festivalın tamaşaçıları əsasən Şuşanın sakinləri idilər.







**Torpaqlarımız azad olunduqdan sonra ...**

Məlum olduğu kimi, ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilərək, 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olundu. 2021-ci ildə Prezident İlham Əliyevin isə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etməsi, Vaqif Poeziya günləri və "Xarı bülbül" festivalını bərpa etməsi ölkəmizin mədəni həyatında əlamətdar hadisələrdən biri idi. Şuşa şəhəri işğaldan azad olunandan sonra ilk dəfə həmin il mayın 12-i və 13-də "Xarıbülbül" festivalı keçirilib.

Torpaqlarımız işğaldan azad olunduqdan sonra artıq 4-cü ildir ki, mədəniyyət paytaxtımızda bu möhtəşəm festival baş tutur. Belə ki, bu il mayın 11-də Şuşada VII "Xarı bülbül" Beynəlxalq Musiqi Festivalının açılışı olub.

Builki festival əvvəlki 3 festivaldan fərqlənib. Çünki bu il ilk dəfə Laçında da festival tədbirləri keçirildi.

Qeyd edək ki, indiki "Xarı bülbül" festivalı "Şuşa- islam dünyasının mədəniyyət paytaxtı 2024" ili çərçivəsində keçirilən tədbirlərlə üst-üstə düşüb.

*Yeganə BAYRAMOVA*

# Avropanın viziyası...

## Yarışma Azərbaycana nə verir?

Mayın 6-da İsveçin Malmö şəhərində Avroviziya 2024-ün rəsmi açılış mərasimi baş tutdu. 68-ci dəfə keçirilən yarışa 37 ölkədən iştirakçılar qatılıblar. Mahnı müsabiqəsinin builki qalibi İsveçrə təmsilçisi Nemo Mettlerdir. O, "The Code" mahnısı ilə 591 xal toplayaraq qalib olub.

**Avroviziyanın tarixi...**

Avropanın ən populyar mahnı yarışması və televiziya şousu olan Avroviziya mahnı müsabiqəsinin yaranma tarixi 1955-ci ilə təsadüf edir. Avropa Yayımlar Birliyinin (EBU) ideyası əsasında belə bir mahnı yarışması layihəsinin meydana çıxmasında əsas məqsəd ölkə televiziyaları arasında ortaq canlı veriliş yaratmaq idi. İdeyanın konsepsiyasına əsasən, hamı bütün üzv ölkələrdə yayımlanacaq möhtəşəm şou üzərində çalışacaqdı.

**Mikrofon sındırmaq ənənəsi...**

Mahnı müsabiqəsi tarixinin 69 ili bir çox maraqlı faktlar və əhvalatlarla yadda qalıb. Builki Avroviziya da müxtəlif müzakirələrə səbəb olan maraqlı məqamla yadda qaldı. Belə ki, qalib gələn İsveçrə təmsilçisi müsabiqənin bağlanış çıxışında qazandığı şüşə mikrofonu səhnədəcə sındırıb. Hadisəni canlı yayımda da izləmək mümkün olub.

Xatırladaq ki, 2008-ci ildən etibarən təşkilatçılar hər bir "Avroviziya" qalibini şüşə mikrofonla mükafatlandırırlar. Mükafatı ilk sındıran isə 2009-cu ildə norveçli Aleksandr Rıbak olub, 2013-cü ildə isə eyni hadisə ilə Danimarka təmsilçisi də üzləşib.

Avroviziya ilə bağlı danışılan məqamlar bununla bitmir. Belə ki, mahnı müsabiqəsinin adı gələn kimi çox zaman yarışmada LGBT təmsilçilərinin iştirakı barədə müxtəlif müzakirələr aparılır. Bir çox şəxslər isə bu barədə tamamilə sərt mövqe bildirirlər. Hətta 2014-cü ildə Danimarkanın paytaxı Kopenhagendə keçirilən 59-cu Avroviziya mahnı müsabiqəsi mavilərin qələbəsi kimi tarixə düşmüşdü. Qalib avstriyalı LGBT üzvü müğənni Konçita Vurst idi.

**Avroviziyadakı siyasi çalarlar...**

Qeyd edək ki, mahnı müsabiqəsi ilə bağlı ən çox danışılan nüanslardan biri yarışmada siyasi məqamların rol oynaması barədədir. Belə ki, dünyada ən çox



baxılan və maraq göstərilən müsabiqə bəzən dövlətlərarası rəqabətə səbəb olur. Bu, həm mədəni, həm də siyasi cəhətdən danılmazdır.

**Ölkəmizin uğurları...**

Xatırladaq ki, 2008-ci il Serbiyanın paytaxtı Belqradda keçirilən yarışmada ilk dəfə Azərbaycan təmsilçiləri çıxış etmişdi. Onlar Azərbaycana 43 ölkə arasında 8-ci yeri qazandırmışdılar. Sonrakı il Azərbaycanı Rusiyanın paytaxtı Moskvada digər duet təmsil etdi. Həmin il ölkəmiz 3-cü yeri tutdu.

2010-cu ildə isə Norveçin paytaxtı Osloda keçirilən 55-ci Avroviziya mahnı müsabiqəsində ölkəmiz 5-ci yeri qazanmışdı.

Nəhayət, 2011-ci il mayın 14-də Azərbaycan təmsilçiləri Almaniyanın Düsseldorf şəhərində 56-cı müsabiqədə çıxış etdilər. Duetimiz müsabiqədə bütün dünyaya səs saldı. Məhz bu ifa Azərbaycana 43 ölkə arasında 221 xalla birincilik qazandırdı.

Təmsilçilərimiz bu birinciliklə Azərbaycanın zəngin musiqi mədəniyyətini təkcə Avropa deyil, eyni zamanda dünya tamaşaçılarına bir daha çatdırdılar. Birincilik qazandıran bu duet Avropa musiqi müsabiqəsində təkcə sənət zirvəsinə yüksəlmədi, həm də ölkəmizi reklam etdi. Dünyanın bütün kütləvi informasiya vasitələri istər-istəməz Azərbaycandan danışmalı oldular

**Azərbaycan yarışmadan imtina edərsə...**

Sosioloq Sahib Altay "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, Avroviziya təkcə mədəniyyət deyil, bilavasitə siyasi layihədir: "Düzdür, iştirakçıların peşəkarlıq səviyyələri çox yaxşıdır. Adətən bu yarışmada siyasi qərarla hansısa ölkələr qalib gəlir, ancaq bu addımı həddindən artıq mənfi adlandırmaq da düzgün deyil. Dünyada gedən qlobal mübarizə, siyasi qarşıdurmalar, ziddiyyətlər avroviziya musiqi yarışmasına təsir göstərir. Məsələn, 2022-ci ildə Ukraynanın səs çoxluğu ilə qalib olması onu göstərdi ki, musiqi yarışmasında siyasi çalarlar çox güdülür. Ukraynanın qalib olması isə Avroviziyanın Kiyevdə keçirilməsi demək idi. Bu da Ukrayna üçün iqtisadi, siyasi və hərbi dəstək sayılırdı".

**Avroviziyanın ölkəmizə ziyanı yoxdur...**

Sosioloqun fikrincə, ölkəmizin yarışmadan imtina etməsi üçün ciddi bir əsas yoxdur: "Çünki adətən bu müsabiqədə iştirak etdiyimiz zaman milli ənənələrimiz də təbliğ olunub. Bunun özü ölkəmizin xeyrinədir. Diqqətçəkən ən önəmli nüanslardan biri isə şübhəsiz ki, qələbə qazandığımız zaman həqiqətlərimizin dünyaya çatdırılması ilə bağlıdır. Məsələn, Azərbaycan 2011-ci ildə Avroviziyanın qalibi olduqdan sonra 2012-ci ildə ölkəmizə çoxlu sayda xarici turist axını olmuşdu. Təbii ki, bu durumun Azərbaycana heç bir ziyanı yox idi".

**Avroviziya ölkəmizə nə verir?**

Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini, millət vəkili Ülviyyə Həmzəyevanın sözlərinə görə, Avroviziya indiki dövrdə çox böyük və qlobal bir platformadır: "Müasir dövrümüzdə artıq müsabiqəyə gənc müğənnilər qatılır və uğur əldə edir. Artıq son illər Avroviziya qalibləri ulduza çevrilirlər. Avroviziyada yadda qalmaq da önəmli bir faktordur. Lakin bu zaman mənəvi dəyərlərimizə də önəm verilməlidir. Ölkəmizin bu yarışmada iştirakı çox vaxt uğurlu olub, iştirakçılar Azərbaycanı yaxşı təmsil ediblər. Bəzən səsləndirilən ifalarda milli musiqimizi də hiss etmişik. Ona görə də bu müsabiqənin ölkəmizin milli musiqisinin tanınmasında böyük rola malik olduğunu düşünürəm".

Ü.Həmzəyeva qeyd edib ki, mahnı müsabiqəsi musiqi mədəniyyəti tarixində ənənəyə çevrilmiş böyük bayram olmaqla yanaşı, həm də mədəniyyətlərarası dialoqa töhfə verən əhəmiyyətli bir tədbir kimi tanınmaqdadır: "Azərbaycan zamanında bu müsabiqəyə uğurla ev sahibliyi etməklə bir daha bütün dünyaya nümunə olmuşdu. Musiqi milliyyət, sərhəd tanımır. Musiqinin dilini hamı başa düşür və bu dildə deyilənləri layiqincə qiymətləndirir.".

*İdman*

## Azərbaycan I Liqasında ilk dəfə VAR sistemi tətbiq olunacaq

Futbol üzrə Azərbaycan I Liqasında XXVI turun "Qaradağ Lökbatan" - "Şamaxı" görüşündə VAR sistemindən istifadə olunacaq.

AZƏRTAC Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, bu sistem yeni adı ilə keçirilən turnirdə ilk dəfə tətbiq ediləcək.

Mövsümün başa çatmasına 2 tur qalmış "Qaradağ-Lökbatan" 53 xalla 1-ci, "Şamaxı" isə 51 xalla 2-ci pillədə qərarlaşıb. Bu səbəbdən çempionluq yolunda böyük əhəmiyyət kəsb edən matçda VAR sisteminin tətbiqinə qərar verilib.

Qeyd edək ki, mayın 16-da keçiriləcək qarşılaşma saat 17:00-da başlayacaq.

## Kişi həndbolçular arasında Azərbaycan çempionu müəyyənləşib



Kişi həndbolçulardan ibarət Azərbaycan çempionatının qalibi bəlli olub.

Azərbaycan Həndbol Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, Mingəçevirin "Kür" Olimpiya İdman Tədris Mərkəzində keçirilən oyunda yerli "Kür"lə paytaxtın "Bakı" komandası qarşılaşıb. Görüş ərəfəsində rəqibləri cəmi iki xal ayırırdı. "Kür" 28 xalla yarış cədvəlinin birinci, "Bakı" 26 xalla ikinci pilləsində qərarlaşmışdı. Şəxsi oyunlarda üstün olan "Bakı" final xarakterli görüşdə qələbə sayəsində çempionluğu rəsmiləşdirəcəkdi. "Kür"ə isə bunun üçün heç-heçə də kifayət edirdi.

Matça daha inamlı başlayan Mingəçevir həndbolçularının fəallığı bəhrəsiz qalmayıb. İlk dəqiqələrdən təşəbbüsə yiyələnməyə çalışan ev sahibləri tədricən favorit statusunu təsdiqləməyə nail olublar. Bu işdə komandanın qapıçısı Aleksandr Milinkoviçin də rolu az olmayıb. Bir neçə epizodda qapısını real qoldan xilas edən həndbolçu komanda yoldaşlarını qələbəyə ruhlandırıb. Yerli azarkeşlərin də güclü dəstəyi ilə irəli atılan "Kür" effektli hücumlar sayəsində ilk hissəni üstün tamamlamağı bacarıb - 11:7.

İkinci hissədə vəziyyəti dəyişməyə çalışan "Bakı" hücuma atılıb. Qapıçının inamlı oyunu və müdafiədəki intizamlı çıxışı ilə diqqət çəkən "Kür" fərqin azalmasına imkan verməyib. Bu azmış kimi qonaqlar matçın son iki dəqiqəsini bir nəfər azlıqda mübarizə aparmalı olublar. Bundan layiqincə faydalanan ev sahibləri üstünlüyü sonadək qoruyaraq çempionluğu rəsmiləşdiriblər - 23:18 .

Son oyunda məğlubiyyətlə barışan "Bakı" yarışın gümüş, "Azəryol" komandası isə bürünc medalları ilə kifayətlənməli olub.

## Azərbaycan Premyer Liqasında mükafatlandırma mərasiminin yeri və vaxtı bəlli olub



Futbol üzrə Azərbaycan Premyer Liqasında 2023/2024-cü illər mövsümünün mükafatlandırma mərasiminin yeri və vaxtı bəlli olub.

AZƏRTAC-ın əldə etdiyi məlumata görə, mükafatlar ölkə çempionatının sonuncu - XXXVI turunun "Araz-Naxçıvan" - "Qarabağ" oyunundan sonra təqdim ediləcək.

Hətta buna görə mayın 26-da "Liv Bona Dea Arena"da oynanılmalı olan matçın məkanı da dəyişdirilib. Qarşılaşma Ağdam klubuna məxsus "Azersun Arena"da keçiriləcək və mərasim də məhz həmin stadionda təşkil olunacaq.

Qızıl medalları öncədən təmin etmiş "Qarabağ"a çempionluq kuboku, ikinci və üçüncü yerin sahiblərinə isə müvafiq olaraq, gümüş və bürünc medallar veriləcək.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5652
Sifariş: 1089
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Nardar BAYRAMLI